

"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

## Azərbaycanın qədim mahalı - Zəngəzur



6

SƏS

№ 195 (7120)

23 oktyabr 2024-cü il.
Qiymәti 60 qəpik

# "COP29-a hazırlıq işləri artıq son mərhələdədir"



2

**Prezident İlham Əliyev "MAN Truck&Bus" şirkətinin baş direktorunu qəbul edib**

# Qərb Gürcüstanda vətəndaş müharibəsi hazırlayır




4

## COP29-un əhəmiyyəti nədən ibarətdir?



7

## Məşhur Dubay şokoladı XƏSTƏLİK YARADIR?



9

## Cibimizdə, əlimizdə, yatağımızda...



12

## Yerə siqaret atmağa görə cərimələr artırıldı - Milli Məclisdən QƏRAR



16

## Üzə bilməyən və batan Bakı: paytaxtı necə xilas etməli?



11

# "COP29-a hazırlıq işləri artıq son mərhələdədir"

## Prezident İlham Əliyev "MAN Truck&Bus" şirkətinin baş direktorunu qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də "MAN Truck&Bus" şirkətinin baş direktoru Aleksandr Vlaskampı qəbul edib. COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı təbriklərini çatdıran qonaq bunun çox önəmli bir tədbir olduğunu vurğuladı.***

Aleksandr Vlaskamp COP29-da nəqliyyat sahəsinin də mühüm amil olduğunu deyərək, bu istiqamətdə Azərbaycanla əməkdaşlığın önəminə toxundu.

Dövlətimizin başçısı qeyd etdi ki, COP29-a hazırlıq işləri artıq son mərhələdədir. Prezident İlham Əliyev vurğuladı ki, ölkəmizdə bu işlərə bir ildən də az vaxt olmasına baxmayaraq, Azərbaycan COP29-un yüksək səviyyədə keçirilməsi üçün səylərini əsirgəmir. Dövlətimizin başçısı COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı 198 ölkənin yekdil dəstəyini yüksək qiymətləndirərək bu cür tədbirin regionda birinci dəfə ölkəmizdə təşkil edilməsinin böyük önəm daşıdığını qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanda yaşıl və bərpaolunan enerjiyə keçid istiqamətində böyük işlərin görüldüyünü və artıq bir sıra mühüm layihələrin reallaşdırıldığını bildirdi.

Dövlətimizin başçısı ölkəmizdə nəqliyyat sisteminin də səmərəli fəaliyyəti üçün tədbirlər görüldüyünü dedi və bu baxımdan "MAN Truck&Bus" şirkəti ilə əməkdaşlığın əhəmiyyətinə toxundu.

Görüşdə ölkəmizlə "MAN Truck&Bus" şirkəti arasında potensial əməkdaşlıq imkanları ilə bağlı müzakirələrin aparılmasından məmnunluq ifadə edildi, şirkətin Azərbaycanda fəaliyyətinə dair fikir mübadiləsi aparıldı. Bu şirkətin istehsalı olan çox sayda texnikanın ölkəmizdə istifadə edildiyi bildirildi. Azərbaycanın artan sosial-iqtisadi potensialı və ehtiyacları nəzərə alınaraq şirkətin məhsullarının alınması ilə yanaşı, ölkəmizdə yerli istehsal imkanları da müzakirə olundu və bunun üçün vahid işçi qrupu çərçivəsində araşdırmaların həyata keçirilməsi barədə razılıq əldə edildi.



# "Ölkələrimiz "Bir millət, iki dövlət" prinsipi ilə hərəkət edir"



**"Azərbaycanla bir çox sahələrdə tək dövlət kimi fəaliyyət göstəririk. Həssas qurumlarımız çox yaxın əməkdaşlıq edirlər. İqtisadiyyatlarımız da bir-birinə çox yaxın formada inkişaf edir. Maraqlarımızın müəyyənləşdirilməsi, strateji yanaşmalarımız və dost-düşmən anlayışlarımız bir-biri ilə üst-üstə düşür." Bu fikirləri Türkiyənin xarici işlər naziri Hakan Fidan yerli televiziya kanallarından birinin suallarını cavablandırarkən ifadə edib.**

Nazirin bu ifadələri Türkiyə mətbuatının diqqət mərkəzində yer alıb. Müsahibəsində Azərbaycan-Türkiyə münasibətləri haqqında danışan nazir ölkələrimizin "Bir millət, iki dövlət" prinsipi ilə hərəkət etdiyini vurğulayıb.

"İki dövlətin, xüsusilə onların strateji qurumlarının ortaq fəaliyyət göstərməsi, başda Cənubi Qafqaz olmaqla, regional və geosiyasi fırtınalarla mübarizə aparan qlobal siyasətə qarşı rasional bir perspektiv yaradır və inteqrasiyanı daha da dərinləşdirir", - deyən Hakan Fidanın bu fikirlərini şərh edən Türkiyə mətbuatı iki ölkə arasındakı münasibətlərin bu qədər dərinləşməsini ortaq fəaliyyətin, uzun və məşəqqətli yolun nəticəsi olaraq qiymətləndirib.

Belə ki, ötən əsrdə formalaşan geosiyasi sistem bunun üçün olduqca böyük çətinliklər yaradırdı. Lakin hazırda bölgədə, xüsusilə İkinci Qarabağ müharibəsindən sonra yaranan siyasi vəziyyət regionun "sahiblənməyə" ehtiyac duyulduğu həqiqətlərini də ortaya qoydu. Bunu da Türkiyənin XİN rəhbəri demək olar ki, hər açıqlamasında vurğulayır.

Qardaş ölkə mətbuatı bu baxımdan Türkiyə, Azərbaycan, İran, Ermənistan və Rusiya xarici işlər nazirlərinin iştirakı ilə İstanbulda baş tutan Cənubi Qafqaz Regional Əməkdaşlıq Platformasının üçüncü toplantısının çox əhəmiyyətli olduğunu qeyd edib. Görüşün sonunda iştirakçı ölkələr tərəfindən yayımlanan ortaq bəyanatda regional sabitlik və iqtisadi əməkdaşlığın vurğulanması da diqqətçəkən məqamdır.

Türkiyə mediası, həmçinin bu kimi toplantıların ən böyük xüsusiyyətinin sabitlik üçün dialoqun dərinləşdirilməsinə töhfə vermək olduğunu vurğulayır.

# Gürcü professor: "Seçki kampaniyasının sakit mühitdə keçməsi müxalifətin passivliyi ilə əlaqədardır"



Builki parlament seçkiləri müstəqil Gürcüstanın tarixində mühüm yer tutur. Seçki kampaniyası sakit mühitdə davam edir. Bu da müxalifətin passivliyi ilə əlaqədardır. Biz nə Gürcüstanın regionlarında, nə də paytaxt Tbilisidə dövlətə qarşı ciddi proqramlı görüşlər görə bilmirik.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Gürcüstanın "Xalqın Gücü" partiyasının üzvü, professor David Kartveli̇şvili söyləyib. Onun sözlərinə görə, seçkilərlə əlaqədar 6 ay əvvəl Avtoritar Arbitiaj kompaniyasının (LTODR) üzvləri Gürcüstana dəvət olunub. Onlar öz müşahidələrinə əsasən Gürcüstandakı vəziyyəti dəyərləndirməli idilər. Bundan başqa, Amerikadan Audit kompaniyası da Gürcüstana dəvət olunub. Hər iki qrupun üzvləri Gürcüstanda yenilənmiş elektron seçki sistemini yoxlayıblar və öz hesabatlarında da bu sistemi texnoloji cəhətdən tam mükəmməl qiymətləndiriblər. Bu da müxalifətin iradlarını və böhtan dolu yalanlarını doğrultmayıb və ifşa edib. Bunların hamısı LTODR-in ilkin qiymətləndirməsində də qeyd olunub. Onlar, həmçinin bildiriblər ki, Gürcüstandakı seçki mühiti sakit və rəqabət mühitində davam edir.

Siyasətçi deyir ki, bu qrupların hesabatında yalnız bir mühüm məsələ var, o da cəmiyyətin və medianın qütbləşməsidir. Amma bu, yalnız Gürcüstanın problemi deyil. Bu cür hallara Amerika Birləşmiş Ştatlarında, eləcə də Avropada yerli və mərkəzi seçkilərdə rast gəlmək mümkündür.

Professor: "Gürcüstanda qütbləşməni yaradan bir sıra ciddi səbəblər var. Bunlardan biri də bəzi qüvvələrin, Qərbin Gürcüstanın daxili işlərinə müdaxiləsidir. Əgər onlar bəzi QHT-ləri və müxalifət partiyalarını maliyyələşdirərək ölkədə hərc-mərclik, xaos yaratmağa cəhd etməsəydilər, bəlkə də bu qütbləşmə olmazdı. Amma düşünürəm ki, bu da mühüm əhəmiyyət kəsb etməyəcək. "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyası seçkiöncəsi verdiyi vədləri yerinə yetirməklə bunun da öhdəsindən gələcək".

# Təcrid olunmaqla

# YAD ÜNSÜRƏ ÇEVRİLƏN ERMƏNİSTAN

***Rəsmi İrəvan dünyada gedən prosesləri qətiyyən anlayana oxşamır. Çünki Ermənistan hakimiyyətinin mövcud situasiyanı hələ də düzgün dəyərləndirə bilmədiyi göz önündədir. Hətta erməni siyasətçiləri, politoloqları arasında da belə bir qənaətdə olanlar, yəni Ermənistan hökumətinin doğru addımlar atmadığı, yanlış istiqamətdə, yanlış yolda olduğunu düşünənlər kifayət qədərdir və onlar hesab edirlər ki, bu, ölkələrini idarə edənlərin cəhalət içərisində olması səbəbindədir. Bu cəhalətin, bu yanlışlığın isə nəticəsinin fəlakət olacağını da bir çoxları açıq şəkildə bildirirlər və buna görə də ermənilər arasında həyəcan təbili çalanlar getdikcə artmaqdadır.***



## Axına qarşı üzməkdə, ətrafdan təcrid olunmaqda olan Ermənistanı nələr gözlədiyi hayları bərk qorxuya salıb

Bir çox erməni siyasətçiləri açıq şəkildə qeyd edirlər ki, ölkələrini idarə edən hakimiyyət komandası qətiyyən dünyada baş verənlərlə ayaqlaşmaq niyyətində görünmür. "Bu gün ABŞ öz hegemonluğunu itirməkdədir. Avropa İttifaqının da getdikcə zəiflədiyini görürük və görünən odur ki, bu proseslər hələ çox uzanacaq. Bunun fonunda BRİKS ölkələrinin güclənməkdə olduğunu da seyr etməkdəyik. Üstəlik, Ermənistanın bu vaxta qədər özünə ən effektiv iqtisadi tərəfdaş hesab etdiyi Rusiya, İran, Birləşmiş Ərəb Əmirlikləri, Misir kimi ölkələr də BRİKS-ə qoşulmağa çalışırlar. Sadə dillə desək, bütün dünya müəyyən bir prosesin içindədir və ölkələrin əksəriyyəti yeni iqtisadi sistemə yönəlib, lakin Ermənistan axının əksinə, axına qarşı üzmək qərarına gəlib", - deyə Ermənistan Milli Konqresi Partiyasının sədr müavini Levon Zurabyan açıq şəkildə bildirib. Daha doğrusu, partiya sədrinin müavini öz ölkəsinin axına qarşı üzdüyünü deməklə, əslində, həyəcan təbili çalıb. Belə bir həyəcan təbilinin çalınmasının səbəbini də başa düşmək heç də çətin deyil. Ona görə çətin deyil ki, qonşu ölkənin ancaq işğalçılıq niyyətində olduğunu, hələ də uydurma miflərə görə özünü bütün ətraf aləmdən, bütün dünyadan, ələlxüsus da regiondan təcrid etdiyini, bu niyyətlə də Qərbin alətinə çevrilməyi daha üstün hesab etdiyini və bu yolla getdiyini, bununla da özünü region ölkələrindən təcrid etdiyini görməmək mümkün ola bilməz. Belə bir şəkildə təcrid olunmaqla da Ermənistanın regionda yad ünsürə çevrildiyi də müşahidə edilməkdədir.

Təkcə siyasətçilər, politoloqlar deyil, hər kəs görür ki, bütün dünya ölkələri iqtisadi, siyasi baxımdan irəliləyişə, uğura imza atmaq üçün bütün qlobal və regional layihələrdə iştirak etməyə can atmaqda olduğu halda, Ermənistan hələ də axmaq, mənasız, qondarma miflərin arxasınca düşüb və bu miflər naminə də dünyanın bir çox ölkələrinin, eləcə də bir çox qüvvələrinin qarşısında özünü sadiq qul kimi aparmağı doğru hesab edir. Ola bilsin ki, hayların belə qul psoxologiyası hansısa qüvvələrin işinə yaraya, xoşuna gələ bilər. Məsələn, öz bildiyini, öz istədiyini bütün ölkələrə, bütün dünyaya qəbul etdirməyə çalışan ABŞ kimi bir ölkə Ermənistanın belə "itaətkar" olmasını ilk baxışda yaxşı qarşılaya bilər. Çünki İrəvanın belə mütiliyi, belə boyun əymək tərzi ümumilikdə Qərbə hər mənada sərf edir və bunu gizlətmir də. Amma gizlətdiyi də var. Xüsusən də Ermənistanla bağlı niyyət gizli saxlanır. Ola bilsin ki, hayların əksəriyyəti Qərbin onları düşündüyü qənaətindədirlər və elə hesab edirlər ki, nə vaxtsa ABŞ, Fransa və həmin ölkələr kimi bəzi ölkələr əllərini, qollarını çırmalayıb ermənilər üçün xoş gün-güzəran, xoşbəxt gələcək quracaqlar. Təbii ki, belə düşünənlər bərk yanılırlar və elə bəzi erməni siyasətçiləri də bu yanılmalarına görə həyəcan təbili çalırlar. Çünki gec də olsa, başa düşürlər ki, ABŞ və Fransa kimi ölkələrin, ümumiyyətlə, Qərb ölkələrinin Ermənistana münasibətinin kökündə regional maraqları dayanır və hələ ermənilər özləri də bilmirlər ki, hansı strategiya nəzərdə tutulub və həmin "müəmmalı strategiyanın" fonunda hayları nələr gözləyir. Elə hayları qorxudan da məhz budur...

## Ermənistan hakimiyyətinin qəbul etdiyi vektorun ölkəni uçuruma apardığı, ölkənin qaranlıq və müəmmalı vəziyyətdə qalması ilə öz təsdiqini tapır

Qarşıdan gələn seçkilərdə Trampın qələbə çalacağından haylar bərk qorxuya düşüblər. Çünki başa düşürlər ki, ABŞ seçkilərində Donald Trampın qalib gəlməsi ilə Ermənistan hakimiyyətinin qəbul etdiyi vektorun ölkəni uçuruma apardığı öz təsdiqini tapacaq. Haylar hesab edirlər ki, Tramp qələbəyə çox yaxındır, simpatiya üstünlüyü artıq onun tərəfindədir və yaxın 20 gündə nəyinsə ciddi şəkildə dəyişməsi ehtimalı da qətiyyən yoxdur. Deməli, qorxudan yuxularını qarışdıran ermənilərin qorxu səbəbi ortaya çıxır və məhz fəlakətlə üz-üzə qalacaqları qənaətində olanlar həyəcan təbili çalırlar. Elə məhz Zurabyan da belə bir qorxunun fonunda həyəcan keçirir və onun timsalında hansısa erməninin qorxusu da, həyəcan təbili çalması da başadüşüləndir. "Bunu nəzərə almaq lazımdır, anlamaq lazımdır ki, Tramp seçilərsə, hamımız özümüzü tamamilə başqa bir dünyada tapacağıq və hökumətin strategiyası bir gecədə ölkəmiz üçün fəlakətli boşluğa çevriləcək. Hətta Harris seçilsə belə, Gürcüstanda qərbyönlü qüvvələr qalib gəlsə belə, bütün bunların Ermənistan üçün hər hansı mühüm perspektivlər gətirəcəyini söyləmək mümkün deyil, çünki Qərb özü böhran içindədir", deyə "Traektoriya" proqramının efirində öz fikirlərini səsləndirən Zurabyan, görünür bundan sonra ölkəsinin regionda yad ünsürə çevrilməkdə olduğuna artıq əmindir.

Əslində, həqiqətən də uzun müddətdir ki, Ermənistanın regionda marginallaşmış bir vəziyyətdə olduğu bəlli idi və qlobal, eləcə də regional layihələrdən belə kənarda qalmaları fonunda hansı vəziyyətdə qaldığı da sirr deyildi. Öz taleyini Qərbin seçiminə buraxan işğalçı ölkə vətəndaşlarının indi hansı vəziyyətlə qarşılaşacaqları barədə qorxular səbəbsiz sayılmır. Çünki Zurabyanın timsalında bəzi erməni siyasətçilər başa düşürlər ki, özünün müstəqil siyasəti olmayan, ümumiyyətlə suveren bir ölkə kimi öz strategiyası olmayan və hansısa ölkələrin diqtəsi ilə hərəkət edən Ermənistan indi Qərbin böhranla qarşılaşdığı durumda daha qaranlıq və müəmmalı vəziyyətlə üz-üzə qalır. Region ölkələri ilə əlaqələrini yaxşılaşdırmaq, mehriban qonşuluq siyasəti aparmaq, bölgədə sülh şəraitində yaşamağı seçmək əvəzinə, region ölkələrinə qarşı işğalçılıq siyasəti yürütməklə Qərbin aləti olmağı üstün tutan Ermənistanın məhz indi, ABŞ kimi bir ölkənin, Fransanın özünün böhranlı vəziyyətdə qalması fonunda, hansı duruma düşdüyünü başa düşən ermənilərin kürklərinə nəyə görə birə düşdüyü anlaşılandır. Anlaşılan odur ki, indi öz hayında olan Qərb qətiyyən hayların hayında ola bilməz və buna görə də ermənilər özlərini yalnız, tənha, ələlxüsus da regionda yad ünsür kimi görməyə başlayıblar və bu mənada haqlıdırlar da. Çünki bilirlər ki, Qərbdən əlləri üzüldüyü təqdirdə al açmağa daha yerləri qalmır və region ölkələrindən hansısa köməyə belə ümid etmək axmaqlıqdır.

## Böhran içində olan Qərbdən dəstək olmayacaq və Ermənistana qalan regionda yad ünsürə çevrilməkdir...

Həqiqətən də İrəvan tərəfindən Qərb vektorunun seçilməsi Ermənistanın hazırkı qlobal qarşıdurmanın əsas forpostlarından birinə çevrilməsi deməkdir. Haylar özləri belə açıq şəkildə etiraf edirlər ki, indi onlar bir dövlət olaraq qlobal qarşıdurmanın əsas cəbhəsinə çevrilərək cəbhə xəttinə doğru qaçırlar. Ermənistan hakimiyyətinin hazırkı açıqlamalarının belə mühasirəyə alınmış dövlətin psixologiyasını aşıladığı artıq hiss olunmaqda, duyulmaqda olduğunu ermənilər özləri hamıdan yaxşı başa düşürlər. Onu da başa düşürlər ki, Rusiya Federasiyası ilə münasibətləri kəsmək imkanını nəzərdən keçirən rəsmi İrəvan ümumiyyətlə, Rusiya təchizatını dayandıracaq. Haylar buna görə də qorxu içərisindədirlər, çünki buğdadan tutmuş, təbii qaz təminatına qədər Rusiyadan asılı olduqlarını bilirlər və artıq sadalananların fonunda yaşaya bilməyəcəklərinə, hətta bundan sonrakı mövcudluqlarına görə qorxu içərisindədirlər. Qorxu içərisində olmaya da bilməzlər, çünki regionda belə üz tutmaq üçün "üz saxlamalı" olduqları hansısa bir dövlət, hansısa bir ölkə yoxdur və regionun heç bir ölkəsi ilə İrəvan tərəfindən normal münasibət saxlanılmayıb. İndi haylar yaxşı başa düşürlər ki, regionda sadəcə olaraq, yad ünsür kimi görünürlər və buna görə də səbəbkar yalnız özləridirlər.

Əli sarıqlı, beli çantalı küçə nümayişçisi və Qərbin layihəsi olan Nikol Paşinyan bir zamanlar erməni xalqını yağlı vədlərlə aldadıb, qızıldan dağlar vəd edərək çaşdırıb hakimiyyət kürsüsünü ələ keçirsə də indi artıq daxili auditoriyanı hansısa formada aldada bilmir. Bir-birinin ardınca məhrumiyyətlərlə üz-üzə gələn, qarşılaşan Ermənistanın bu günə qalmasının, çarəsizliyinin səbəbini də açıqlamaqda çətinlik çəkir. Ona görə çətinlik çəkir ki, onu hakimiyyət kürsüsünə "otuzduran" Qərbə bunun əvəzində qul kimi xidmət etdiyini və indi əli üzüldüyünü izah etməyin yolunu belə tapmır. Heç tapa da bilməyəcək. Axı öz hakimiyyəti naminə ölkəsinin müstəqilliyini, suverenliyini nəzərə belə almadan Qərbin ayaqları altına atdığını necə izah edə, yaxud necə əsaslandıra bilər? İndi ölkəsinin məhrumiyyətlərlə üzləşdiyini, Qərbin böhranı ilə Ermənistanın da sıxıntıya düşdüyünü, ümumiyyətlə, regionda yad ünsürə çevrildiyini erməni baş nazir daxili auditoriyaya həzm etdirməyə qadir deyil. Çünki reallıqda ölkəsini müstəqillik deyil, vassallığın ən ağır, ən pis variantına sürüklədiyini özündən yaxşı bilən yoxdur. Nikol Paşinyan özü hamıdan yaxşı başa düşür və bilir ki, bundan sonra ölkəsinə qətiyyən Qərbdən dəstək olmayacaq və ona da, ölkəsi Ermənistana da qalan ən azından regionda yad ünsürə çevrilməkdir...

**_İnam Hacıyev_**

# Qərb Gürcüstanda vətəndaş müharibəsi hazırlayır

***Gürcüstanda seçkilərə cəmi 4 gün qalıb. Əgər nəzərə alsaq ki, oktyabrın 25-i "sükut günü"dür, partiyaların təbliğat-təşviqat prosesinə daha 3 gün sərf edə biləcəklər. Gürcüstanda keçiriləcək parlament seçkilərinin nəticələrinin Gürcüstanla yanaşı bütün Cənubi Qafqaza təsir edəcəyini deyənlər də çoxluq təşkil edir. Nəzərə alsaq ki, regionda maraqlı olan qüvvələr də bu nəticələrə uyğun davranacaqlar, onda yaxın günlərdə biz daha böyük hadisələrə şahidlik edə bilərik. Keçirilən aksiyalar da prosesin nataraz olacağından xəbər verir.***






Maraqlıdır seçkilərin nəticələrindən kim qazanacaq, ABŞ, yoxsa, Rusiya? ABŞ-ın Cənubi Qafqazı öz təsirinə salmaq istəyi kimsəyə sir deyil. Ermənistan faktiki olaraq ABŞ-ın nəzarətindədir. Növbə Gürcüstanındır. Keçiriləcək seçkilərin nəticələri nə olursa olsun Gürcüstanda xaos gözlənilir. Əgər hakim partiya seçkidə qələbə qazanarsa, bu zaman ABŞ öz agentura şəbəkəsi və "Soros fondu"nun dəstəyi ilə müxalifəti ayağa qaldıracaq. Dövlət çevrilişinə cəhd də planın bir hissəsidir. Əgər müxalifət qazansa, Gürcüstan Rusiya ilə müharibəyə sürüklənəcək. Yəni, Gürcüstan xaosdan sığortalanmayıb.

"Gürcü Arzusu"nun fəxri sədri Bidzina İvanişvili açıqlamasında ABŞ və Qərbin ondan tələbini açıqlayıb. Məlum olub ki, ondan Rusiya ilə 4 günlük müharibə etməsini, hətta partizan hərəkatı ilə müharibəni davam etməsini istədiklərini deyib. Qərbin məqsədi Gürcüstanda sadəcə xaos yaratmaqdır, əgər bu baş versə yeni hədəf Azərbaycan olacaq. Bidzina İvanişvilinin "İmedi" telekanalına müsahibəsi bir çox baxımdan diqqət çəkib. Qərblə bağlı dedikləri isə Qərb-Gürcüstan gərginliyinin səbəblərini üzə çıxarır: "Avropa və Amerikada bütün siyasətçilər NATO-nun Rusiya ilə münaqişədə iştirakına imkan verməyəcəklərini bəyan edirlər. Bu, 2008-ci ildə planlaşdırılıb. Gürcüstan və Ukraynanı ona görə kənarda saxlayıblar və NATO-ya üzv qəbul etmirlər. Həmin ildə NATO-nun sammitində Ukrayna və Gürcüstan Alyansa qəbul edilmədi və buna görə müxtəlif ölkələr günahlandırıldı. Amma reallıq tamam başqadır. Bu, bir-iki ölkə veto qoyduğuna görə baş vermədi. NATO koordinatorlarının Ukrayna və Gürcüstanı qəbul etmək istəyi yox idi. Çünki Avropadan və Amerikadan olan istənilən səviyyəli siyasətçilər heç bir halda NATO-nun Rusiya ilə münaqişədə iştirakına imkan verməyəcəklərini bəyan edirlər".

Qərb birbaşa Rusiya ilə müharibə etmək istəmir. Əvəzində Ukrayna və Gürcüstan kimi ölkələri irəli verir və Rusiya ilə proksi müharibə aparmağa üstünlük verdiyi halda Aİ, NATO həm münaqişədən kənarda qalır, həm də dağıntılara məruz qalmır. Gürcüstan 2008-ci il hadisələrindən bu günə qədər Qərbin ona dəstək verəcəyini gözləyir. Maliyyə dəstəyindən və yaxud Avropa İttifaqının iqtisadi, siyasi güzəştlərindən söhbət getmir. 16 il keçməsinə baxmayaraq Aİ və NATO-ya üzv olmaq istəyində olan Tbilisinin arzusu çin olmayıb. Qərb vədini unudub, Gürcüstanı Rusiya ilə bir neçə dəfə qarşı-qarşıya qoyub. Nəticədə, Abxaziya və Cənubi Osetiya faktiki olaraq itirilib. Qərbin Gürcüstandan Ukrayna münaqişəsinə birbaşa müdaxilə etməsini tələb etməsi də Tbilisiyə əlavə sıxıntı yaşadıb.

Gürcüstan artıq Qərbin vədlərinə inanmır, daha dəqiq desək, Qərbdən hərəkətə keçməsini istəyib. Gürcüstanın qəbul etdiyi anti-Qərb qanunlar, o cümlədən Rusiya ilə münasibətləri normallaşdırmaq cəhdləri rəsmi Tbilisinin ciddi olduğunu göstərir.

## Gürcüstan geosiyasi oriyentasiyası ilə bağlı qərar verəcək

Moldovanın ardınca Gürcüstan vətəndaşları da öz geosiyasi seçimini edəcəklər, burada oktyabrın 26-na təyin edilmiş parlament seçkiləri üçün hər şey hazırdır. Bazar ertəsi Gürcüstanın baş naziri İrakli Kobaxidze təəssüf etmədən bəyan edib ki, Moldova "demokratiya üçün vahid sınaqdan" keçməyib, lakin Tbilisidən fərqli olaraq, Qərb bunu praktiki olaraq tənqid etmir. Bu arada gürcü müxalifətçiləri əmindirlər ki, hakim Gürcü Arzusu (GA) ilə bağlı bütün tənqidlər tamamilə haqlıdır. Eyni zamanda, onlar artıq qələbə qazanacaqları təqdirdə ilk hərəkətləri razılaşdırıblar. Prioritet Brüsselin tələb etdiyi islahatları həyata keçirəcək və uğurlu olacağı təqdirdə Gürcüstanı Aİ-yə yaxınlaşdıracaq texnokratlardan ibarət koalisiya hökumətinin yaradılmasıdır.

"Biz hamımız Moldovada seçkiləri izlədik və demokratiyanın bir sınağından da keçmədik. Seçkilərdən əvvəl prezidentliyə namizədlər bir-birinin ardınca yarışmadan uzaqlaşdırıldı. Və belə seçkilərin keçirilməsindən sonra qərblilər Moldovanı Gürcüstana örnək göstərirlər", - Gürcüstanın baş naziri İrakli Kobaxidze Moldovanın Avropaya inteqrasiyası üçün hazırda daha bariz perspektivlərə toxunarkən qəzəbini gizlətməyib. "Xatırlatmaq istərdim ki, Moldova MDB-nin üzvü olaraq qalır və əhalisinin yarıdan çoxu, hətta daha çoxu Avropaya inteqrasiyanın əleyhinədir. Moldovanın namizəd statusuna, Avropa İttifaqına üzvlüklə bağlı danışıqlara layiq olduğunu, gürcü xalqının və hakimiyyətinin isə buna layiq olmadığını bəyan etməklə gözümüzə toz tökürlər. Bu, ayıbdır", - deyə cənab Kobaxidze bildirib. Hakim "Gürcü Arzusu" partiyasının icraçı katibi Mamuka Mdinaradze də eyni fikri bildirib: "Təsəvvür edin ki, yalan üzərində çox şey yarananda və Avropa adına əhaliyə yalan danışılanda belə nəticələr alınır. Biz məhz bundan qoruyuruq".

Oktyabrın 26-da Gürcüstanda keçiriləcək seçkilərdə mübarizənin Moldovadakından heç də az olmadığı gözlənilir. Moldova məsələsində olduğu kimi, nəticələr də müxtəlif növ qadağan olunmuş üsullardan istifadə ittihamları olmadan olmayacaq. Mamuka Mdinaradze bildirib ki, hakimiyyət müxalifətin "bir neçə seçki məntəqəsində ən azı elementar pozuntulara və manipulyasiyalara cəlb etmək üçün seçki prosesinə daxil olan xeyli sayda insanları şantaj etməyi və ya rüşvət almağı" planlaşdırdığı barədə məlumatlara malikdir. Məqsəd onların təhrik etdikləri qanun pozuntularını lentə almaq və seçkilərlə bağlı mənfi rəy yaratmaqdır. Həmçinin siyasətçinin sözlərinə görə, müxalifət seçki məntəqələrinin işçilərini eyni tipli şikayətlərlə sıxışdırmaq, Mərkəzi Seçki Komissiyasının rabitə kanallarını həddən artıq yükləmək, məntəqə komissiyalarının partiya üzvlərinin funksiyalarını yerinə yetirməkdən kütləvi şəkildə imtina etmək, səsvermə zamanı süni növbələr yaratmaq, stansiyaları, elektron səs sayma maşınlarını zədələməyə və "karuselləri" təqlid etmək niyyətindədir.

Müxalifət də öz növbəsində iqtidarı haqsız oyunda ittiham etməkdə davam edir, lakin eyni zamanda, görünür, onlar mütləq qələbə çalmaqda qərarlıdırlar. Yada salaq ki, "Gürcü arzusu"na müxalifətin dörd böyük koalisiyası qarşı çıxır: eks-prezident Mixail Saakaşvilinin "Birlik" ("Vahid Milli Hərəkat", "Strategiya Qurucusu" "Avropa Gürcüstanı"), bankir Mamukanın "Güclü Gürcüstan", Xazaradzenin ("Lelo" partiyası, "Xalq Naminə" və "Azadlıq Meydanı" ictimai hərəkatı), media meneceri Nika Qvaramiyanın "Dəyişiklik üçün Koalisiya" ("Axali", "Girçi", "Droa" partiyaları), həmçinin keçmiş baş nazir Giorgi Qaxaria tərəfindən yaradılan "Gürcüstan Uğrunda".

Bu dörd koalisiya Brüsselin tələb etdiyi institusional islahatları həyata keçirəcək və bununla da Aİ-yə üzvlük danışıqlarının başlanmasını təmin edəcək "texniki hökumət" yaratmağa razılaşıb ki sonra, yəni 2025-ci ildə ölkədə yeni parlament seçkiləri keçirilsin. Avropaya inteqrasiya tərəfdarları bazar günü, oktyabrın 20-də öz güclərini nümayiş etdirdilər. Tbilisinin Azadlıq Meydanında "Gürcüstan Avropa İttifaqını seçir" şüarı altında minlərlə insanın iştirakı ilə mitinq keçirildi. Gürcüstan və Avropa bayraqları ilə meydana çıxan nümayişçiləri pəncərələrdən və eyvanlardan Cənubi Qafqaz ölkəsinin Aİ-yə üzvlüyü ilə bağlı danışıqlara dərhal başlanmasının tərəfdarı olan hər kəs qarşılayıb. Xatırladaq ki, Gürcüstanın hazırkı hakimiyyət orqanları xarici agentlər, həmçinin "ailə dəyərlərinin və yetkinlik yaşına çatmayanların qorunması haqqında" qanunlar qəbul etdikdən sonra bu proses Brüsselin qərarı ilə dayandırılıb.

## Azadlıq Meydanı Gürcüstan siyasətində əlamətdar yer

2003-cü ilin noyabrında Mixail Saakaşvilinin rəhbərlik etdiyi "Qızılgül İnqilabı" buradan başlayıb. Həmin hadisələrin fəal iştirakçısı, sovet dövrünün dissidenti Levan Berdzenişvili deyib: "Əgər hakim partiya seçkilərin nəticələrini saxtalaşdırmağa cəsarət etsə, xalqın dinc, zorakılıqsız, silahsız, qansız qiyam hüququ olacaq". Deməli, istənilən halda, ya da kiminsə təhriki ilə avropapərəstlərlə, rusiyapərəstlər arasında qanlı toqquşmalar ola bilər. Mitinqdə müxalifət liderlərinin özləri çıxış etməyiblər. Əvəzində tanınmış şairlər, aktyorlar, müğənnilər tamaşaçılara müraciət ediblər. Onlar vətəndaşları seçki məntəqələrinə gedib "dörd Avropayönlü partiyadan hər hansı birinə" səs verməyə çağırıblar. Siyasətçilər isə səhnənin arxasında dayanaraq aksiyanın uğurlu alındığını bildiriblər.

Maraqlıdır ki, gələcək koalisiyanın dörd üzvündən üçü Mixail Saakaşvilinin hər hansı səlahiyyətlə hakimiyyətə qayıdışı imkanını belə nəzərdən keçirmir. Keçmiş baş nazir Qaxariyanın "Gürcüstan naminə" hərəkatı isə hətta eks-prezidentin həbsdən azad olunmasının əleyhinədir. Koalisiya hökumətində baş nazir postuna real namizəd hazırkı prezident Salome Zurabişvilidir.

"Gürcü arzusu"nun isə xanım Zurabişvili üçün başqa planları var. Bazar ertəsi məlum olub ki, parlament çoxluğundan olan deputatlar prezidentin ölkənin əsas qanunlarını pozması (hökumət icazəsi olmadan xaricə səfərlərə gedib) barədə Konstitusiya Məhkəməsinə şikayət vermək üçün lazım olan imzaları toplayıblar. Bununla bağlı baş nazir Kobaxidzə bəyan edib ki, Salome Zurabişvili öz postunu planlaşdırıldığı kimi deyil, məhkəmənin qərarı ilə - vəzifədən uzaqlaşdırılan prezident kimi tərk etməlidir.

## Ən sonda

Gürcüstan mühüm inkişaf mərhələsini yaşayır. Gürcüstan siyasətində yavaş-yavaş, ağrılı, amma yenə də məsuliyyət kimi məcburi prinsip kök salır. Daxildə və xaricdə hər kəs öz çağırışlarının, qərarlarının və bəyanatlarının nəyə gətirib çıxara biləcəyini anlamalı və məsuliyyət daşımalıdır. Moldovada bəyənilməyən işi Gürcüstanda etmək bu ölkəni məhvə sürükləməkdir.

**V.VƏLİYEV**

# Qida terroru necə aparılır?

***İnsan sağlamlığına birbaşa zərər verən qidalar süni hazırlanan, tərkibində qatqı maddələri olan qidalar, radiasiyalı kənd təsərrüfatı məhsulları, saxta içkilər və s. qidalardır. Yaşamaq üçün bizim qidaya ehtiyacımız var. Qida, su könüllü istehlak məhsulları deyil, zərurətdir. Bizi sağlam qocaldan, tərkibində karbohidratlar, zülallar, vitaminlər və minerallar olan qidalardan gedir söhbət. Lakin bu gün bizə, tərkibində bütün riskləri ehtiva edən, bakteriya, göbələk, virus, parazit, mikotoksin və GMO kimi zərərli tərkibdə olan, şüşə, metal, plastik, daş, yad cisim, radiasiya kimi təhlükələri özündə gizlədən, pestisidlər, baytarlıq dərmanları, hormonlar, sənaye zəhərlənmələrinə məruz qalan qidaları satırlar. Başqa sözlə, biz həyatda qala bilmək üçün pul verib qida aldığımızı zənn edirik, lakin zərəli maddələrlə zəngin zəhər almış oluruq.***

Qida terroru o qədər geniş bir mövzudur ki, bütün istiqamətləri bir yazıya sığışdırmaq mümkün deyil. Tərkibində xərçəngə səbəb olduğu sübut edilən maddələr olan və süni yaradılan qidalar son illər ən çox yayılmış qida terroru üsuludur. Xüsusilə uşaq qidaları, düyü, radiasiyalı kənd təsərrüfatı məhsulları, saxta alkoloqlu içkilər bu qəbildəndir. Kənd təsərrüfatı məhsullarının məhsuldarlığını və keyfiyyətini artırmaq üçün istifadə edilən hormonlar, kimyəvi dərmanlar sağlamlığa zərər verən, kanserogen maddələr də insan sağlamlığı üçün ciddi təhlükədir.

## Hər gün 2000 növ qatqı maddəsi qəbul edirik

Qablaşdırılmış qidalarla bağlı ən böyük mübahisə sağlamlığa bir təhlükəsinin olub-olmaması ilə bağlıdır. Bu qidalar çox vaxt maddələr mübadiləsinə, immun sistemimizə və genetikamıza ciddi təsir göstərir. Bir qisim bu qidaların son dərəcə sağlam olduğunu düşünür, digər tərəf isə onların tərkibinə qatılan konservantların son dərəcə zərərli olduğu qənaətindədir. İstehlak edəcəyimiz hər bir hazır məhsulun qablaşdırılması diqqətlə araşdırılmalıdır. Qablaşdırmanın açılmaması, köhnəlməməsi və deşilməməsi çox vacibdir, əks halda çox ciddi zəhərlənmə halı - botulizm baş verər ki, əksər hallarda nəticəsi ölüm olur.

Qida sənayesində hər il minlərlə məhsulun tərkibində olduqca çox çeşiddə qatqı maddəsi istifadə olunur. Hal-hazırda insanlar hazır qidalar vasitəsi ilə gündə təxminən 2000 növ kimyəvi qatqı qəbul edirlər. Dadlandırıcılar, ətirləndiricilər, qatılaşdırıcılar, ağardıcılar, rəng qoruyucuları, köhnəlməə əleyhinə maddələr, nəmləndiricilər, boyalar, aromatlar və s. Yəni yediyimiz hər hazır qidanın tərkibində saysız-hesabsız qida əlavəsi var deyə bilərik.

Qida sənayesi, məhsulların qablaşdırılmasında istifadə olunan bu əlavələri məhsulun üzərində göstərməlidir. Ancaq buna nə qədər əməl edilir, burası mübahisəlidir. Gəlin, ən sadə misal çəkək - saqqız. Kiçik bir məhsulun tərkibində nələr var, sayaq. Ən birinci dadlandırıcılar - şəkər xəstəlinə meyillilik yaradır, beyin fəaliyyətini pozur, başağrısı, başgicəllənmə və huşunu itirməyə, dodaqlarda, dildə və ayaqlarda şişməyə səbəb olur. "Aspartam" dediyimiz maddənin tərkibində "fenilalanin" adlı bir amin turşusu var. Bu, uşaqlarımızın inkişaf edən reproduktiv orqanlarına və beyinlərinə zərər verir. Bununla belə, sonsuzluq və əqli gerilik də yaradır. Aromat üçün vurulan maddələr də var ki, nanotexnologiya və gen texnologiyası ilə istehsal edilən bu aromatlar bədən-ruh balansı ilə yanaşı hormonal tarazlığa da təsir göstərir. Nəmləndirici - qliserinlər isə qəssabxana tullantılarından əldə edilir. Qısası, 2,5 qramlıq saqqızda 18 qatqı maddəsi var.

Kiçik, sadə bir saqqızın tərkibində bu qədər zərərli qatqı varsa digər məhsulları da təsəvvür etmək çətin deyil. Bəzən istehsalçılar



qida əlavələrinin tərkibində zərərsiz və hətta faydalı maddələr olduğunu deyirlər. Bu gün qatqı maddələrinin müxtəlif üsul və texnologiyalarla istehsal olunduğunu nəzərə alsaq, onların istehsal üsullarının, kimyəvi tərkibinin o qədər də etibarlı olmadığı göz qabağındadır. Məsələn, "karoten" A vitamininin təbii mənbəyidir. Təbii bitki piqmentlərindən əldə edilməlidir. "Betanin" qırmızı çuğundurdan alınır. 25-30 il əvvəl təbii bitkilərdən əldə edilən bunların hər ikisini etibarlı hesab etmək olardı, amma o zamanlar üçün. Lakin zaman keçdikcə yeni üsul və texnologiyadan istifadə edildikdən sonra bu əlavələr əsasən GMO bitkilərdən daha ucuz yollarla istehsal olunur. Hətta qablaşdırmanın üstündə inqrediyentlər qeyd olunsa belə, məhsulda istifadə olunan faktiki əlavələri adi üsullarla öyrənmək mümkün deyil. Biz "betanin"in hələ də çuğundurdan əldə edildiyini düşünərək nə qədər saf olduğumuzu sübut edirik əslində...

## Qida əlavələri nədir?

Gün ərzində diqqət etmədən istehlak edilən qidalarda ən çox rast gəlinən qida əlavələrini araşdırsaq ən çox "Bisfenol-A" maddəsinə rast gələrik. Qida sənayesində məhsulların xarab olmasının qarşısını alan ən məşhur əlavədir. Estrogen hormonu kimi təsiri olan bu qatqı bədənimizdə qidaların estrogen nisbətinin artmasına səbəb olur. Bu səbəbdən trombosit istehsalı azalır və orqanizmdə endometrioza səbəb olur. Bu uşaqlığın daxili xəstəliyidir və müalicəsi çox çətindir.

Nitrat-nitrit bu gün emal edilmiş ət məhsullarında ən çox istifadə edilən əlavədir. Bu iki əlavə qoruyucu, rəngləndirici və ləzzət artırıcı kimi istifadə olunur. Natrium Nitrit xüsusilə ölkəmizdə nitrat-nitritdən sonra ən çox istifadə edilən qatqı növüdür. Kolbasa, sosiska kimi emal edilmiş ətlərdə istifadə olunur. Bu məhsullar vasitəsilə istehlak etdiyimiz nitrit orqanizmdə kanserogen maddələr olan nitrozaminləri əmələ gətirir. Nitrozamin bədənimizdə mutasiyalara və xərçəngə səbəb olur.

Natrium sulfitdən qida sənayesində rəng və konsistensiya qoruyucusu, həmçinin xarab olan məhsulların ağardıcı vasitəsi kimi istifadə olunur. Şirniyyat, pendir, saqqız, dondurma, portağallı içkilər, meyvə şirələri və peçenye kimi bişmiş məhsullarda da rast gəlinən bu maddə yaddaş pozğunluğuna səbəb olur.

Bu arada, natrium sulfit və natrium nitrit xüsusilə hamilə qadınlar və uşaqlar üçün təhlükəlidir.

GMO buğdadan və GMO qarğıdalıdan istehsal edilən karamellərdə rəngləndiricilər və dadlandırıcılar var. Xərçəngə səbəb ola bilən bu qatqılar konservləşdirilmiş qidalar, hamburgerlər, tortlar, peçenye və qənnadı məmulatları kimi bir çox məhsulda olur. Titan dioksid də ən təhlükəli qida əlavələrin-




dən biridir. Alüminiumdan əldə edilən bu qatqı bəzi şirniyyatlarda nəmləndirici və rəngləndirici kimi istifadə olunur. Zəhərli və ya allergen maddələrə qarşı həssaslığa səbəb ola bilər. Dünyanın bir çox ölkəsində qadağan olunmuş maddədir.

Aspartam saqqız, ketçup, sous, şokolad, qazlı içkilər, dərman və pəhriz qidaları kimi məhsullarda istifadə olunur. Tərkibində fenilalanin adlı sintetik amin turşusu var. Bu maddə fenilalaninin qanda və toxumalarda toplanmasına səbəb olur. Uşaqların inkişafında beyin zədələnməsinə səbəb ola bilər. Göz qapaqlarında, dodaqlarda və əllərdə şişməyə səbəb ola bilər.

Monosodium qlutamat adlı qida əlavəsi ləzzət artırıcıdır. Bir çox fabriklərdə, restoranlarda və kafelərdə dad artırıcı kimi istifadə olunur. Çin, yapon və türk mətbəxində çox istifadə olunur. Astma xəstələrində baş ağrıları, ishal, ürək sıxılmaları və şiddətli astma krizlərinə səbəb olduğu məlumdur.

Formaldehid adlı qatqı hazır məhsulların xarab olmasının qarşısını almaq üçün istifadə olunur. Formaldehid kimya sənayesində ən çox istifadə edilən maddələrdən biridir. Tekstil, xalça, boya, rezin, mebel və buna bənzər bir çox məişət məhsullarında istifadə olunur. Ümumiyyətlə, qida əlavələrinin teztez istifadə edildiyi hazır qidalar sağalmaz xəstəliklərin yaranmasına səbəb olur. Bunlardan bəziləri həzmsizlik, böyrək və böyrəküstü vəzi xəstəlikləri, reproduktiv orqan pozğunluqları, sonsuzluq, kistalar, xərçəng, diabet, tiroid, davranış pozğunluqları, başgicəllənmə, autizm, depressiya, alzeymer kimi bir çox nevroloji və ruhi xəstəliklərdir.

## Soyuqdan istiyə - istidən soyuğa

Qablaşdırmanın üzərindəki son istifadə tarixi araşdırılmalı və qidanın istehlak ediləcəyi müddətə ən uyğun olan məhsul seçilməlidir. Xüsusilə qeyd etmək vacibdir ki, dondurulmuş qida məhsulları soyuq zəncirdən ayrılmamalıdır. Yəni əgər bu məhsul mağazada soyuducuda mühavizə edilirsə alınan kimi ən qısa müddətdə istehlak edilməli, yaxud temperaturu dəyişmədən təkrar soyuducuya qoyulmalıdır. Unudulmamalıdır ki, hər bir qida öz xüsusi qorunma sahəsində olmalıdır.

Hazır qidaların zərərli olmasının ən böyük səbəbi tərkibində olan konservantlardır. Konservantlar ilk baxışda təhlükəsiz görünsə də, bəzi hallarda olduqca zərərli ola bilər.

Eyni zamanda, hazır qidaların təhlükəsi onların tez xarab olmasıdır. Hazır qidalar uzun ömürlü olduğunu iddia etsə də, bəzi hallarda normaldan daha tez xarab ola bilər. Bu vəziyyətlərdən birincisi yanlış saxlama şəraitidir. Demək olar ki, hər bir qida məhsulunun üzərində düzgün saxlama şərtləri qeyd olunsa da, bəzi hallarda buna əməl edilmir.

## Hazır qida yerinə ekoloji ev məhsulları

Hazır qidaların elmi cəhətdən sübut edilmiş bəzi zərərləri var. Çox uzun müddət, teztez istehlak edilən hazır qidaların tərkibində olan konservantlar xərçəng riskini artırır. Ürək tutmalarına səbəb olmaqla yanaşı, damar xəstəliklərinə də yol açır. Xüsusilə şəkərli diabeti olan və ya diabetə meyilli insanlar üçün hazır qidalar təhlükəlidir. Tərkibində çox boya və konservantlar olan qidalar son dərəcə risklidir. Bu kimi bir çox səbəblərə görə bir çox insanlar hazır qidalardan maksimum imtina etməlidir. Əvəzində ev konservləri hazırlana bilər, bunun üçün o qədər də çox olmayan vaxt və hazır qidalaya xərclənən vəsaitdən qat-qat az vəsait tələb olunur.

Məsələn, şahidi olmusunuz, mağzalarda turşuların satıldığı bölmə həmişə bol müştərili olur. İnsan niyə turşunu marketdən alsın ki? Bir kələmi, 1 kilo yerkökünü, 2 ədəd çuğunduru 1 ovuc duzla ovsanız 1 həftədən sonra ləziz turşunuz olacaq, üstəlik ən azı 3 kilo olacaq bu turşuya cəmi 3-4 manat xərciniz çıxacaq. Halbuki eyni məbləğə mağazadan bir ovuc turşu ala bilərsiniz.

Hələ hazır şorbaları demirəm... Bəzən iş çox olarsa, səhhətinizdə problem olarsa hazır şorba sizin üçün göydəndüşmə fürsət olacaq. Amma bu şorbaların tərkibindəki konservantlar ondan asılı qalmağa səbəb olur, nəticədə siz ev üsulu şorbanı sevmir, yerinə hər fürsətdə hazır şorba alırsınız. Şorbalara atılan toyuq bulyonları... Təhlükəsi barədə məlumatlısınızmı?

Dondurulmuş, dilimlənmiş kartof alanlar kütləvidir. O kartofların kanserogen olduğunu bilmirlər? Əlbəttə, bilmək istəmirlər. Çünki kartof soymaq, doğramaq onlar üçün işgəncədir, lakin onkoloji xəstəliklər zamanı çəkəcəkləri işgəncə heç bir ağrı ilə müqayisə edilməyəcək. Uşaqlı-böyüklü hamı kola xəstəliyinə tutulub. Mövsümündə qəpik-quruş olan meyvələrdən kompot ehtiyatınızı görsəniz bütün qış boyu sağlam, zərərsiz içkiniz olacaq.

Qatığı mağazadan alanlar var hələ. Axı indi az qala btün həyətlərə kəndlərdən məhsul gətirən adamlar var, mağazadan 500 qramını 2 manata aldığınız qatığın 3 litrini 3 manata satır kənddən gələnlər. Həm sərfəli, həm də sağlam. Kimyəvi məhsullardan hazırlanmış, əhəngə bənzəyən mağaza qatığı yerinə kənd qoxuyan ekoloji təmiz qatıq almaq olmazmı?

Analar südəmər körpəsinə faydası olsun deyə kəsmik alır mağazadan. Süd tozundan, kimyəvi üsullarla hazırlanan o kəsmikdən övladınız fayda yox, zərər görür. Ekoloji təmiz südə 1 qaşıq limon suyu qatıb özünüz də hazırlaya bilərsiniz ev üsuslu kəsmiyi - əziyyətsiz, ekonomik. 2 yumurtanı, bir parça yağı, 1 stəkan süd və 1 stəkan unla yoğurduğunuz xəmirlə hazırladığınız kökələrin alternativi hansı mağazada daha ekonomik və daha sağlam ola bilər ki? Övladınızın çantasına qoyacağınız ev üsulu şirniyyat məktəb bufetində vaxtı keçmiş, tarixi yenilənmiş köhnə peçenyelərdən daha dadlı deyilmi? Aylarla eyni yağda qızardılan peraşkiləri, qutabları ev üsulu etmək olmazmı? Ailəmizin sağlamlığı təhlükə altındadırsa bir qədər zəhmət çəkmək lazımdır.

***Lalə Mehralı***

# Azərbaycanın qədim mahalı - Zəngəzur

Azərbaycanın mədəni irs nümunələrini erməni mülkiyyəti adı ilə tanıtmağa çalışaraq əqli mülkiyyətimizin terrorçusuna çevrilən ermənilər ölkəmizin 30 ilə yaxın işğal altında olan ərazilərini xarabalığa çevirərək vəhşilik missiyalarını həyata keçiriblər. Artıq Azərbaycan 44 günlük Vətən müharibəsində Zəfər qazandı və yolumuzu gözləyən yurd yerlərimizdə abadlıq quruculuq işlərinə start verilib. İşğaldan azad olunmuş ərazilərdə məscidlər, mədrəsələr, körpülər, məbədlər nəinki dağıdılmış, eyni zamanda bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq xalqımızın milli mənəvi dəyərləri təhqir edilib. Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri və s. bu sırada vurğulanmalıdır. Qaraağac qəbiristanlığında yerləşmiş yerli əhəmiyyətli memarlıq abidəsi olan Uğurlu bəyin türbəsi də daxil olmaqla XIX əsrə aid 4 türbə tamamilə məhv edilmişdir. Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələri dağıntılara məruz qalmış, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan dəymişdi. Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri olan məscidlər, türbələr və digər inanc yerləridir ki, bu da erməni vandallığının göstəricisidir.

Bütün qeyd olunan bu və digər abidələrimizlə yanaşı, Qərbi Azərbaycan ərazisində məhv edilən abidələrimizi də qeyd etməliyik. Zəngəzurdan İrəvana qədər dağıdılmış tarixi abidələr erməni vandallığınının bariz nümunəsidir. Qərbi Zəngəzurun etnik təmizləməyə məruz qalan Gorus, Qafan, Mehri, Qarakilsə (Sisian) rayonlarının tarixi əhəmiyyətli yaşayış evləri, inzibati yaşayış məntəqələri, qəbiristanlıqlar, qəbirüstü abidələr, məscidlər, türbələr də tamamilə məhv edilib, Alban dövrü kilsə və monastırlar isə formaları dəyişdirilərək yararsız hala salınıblar. Ermənistanın mədəniyyət obyektlərinə, dini-mədəni irsimizə qarşı bu cür vandalizm aktları bir çox beynəlxalq sənədlərə, o cümlədən 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Konvensiya"nın, "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasının, "Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya"nın müddəalarını kobud şəkildə pozmuşdur.



## AZƏRBAYCANLILARA QARŞI MƏQSƏDYÖNLÜ ŞƏKİLDƏ HƏYATA KEÇİRİLMİŞ ETNİK TƏMİZLƏMƏ VƏ SOYQIRIM SİYASƏTİ

1988-ci ildə Zəngəzurda, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovulmağa başladılar. Kütləvi terrora məruz qalan azərbaycanlılar məcburiyyət qarşısında qalıb öz dədə-baba yurdların tərk etdilər. Bu ərazilərdə onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edildi. Ulu Öndər Heydər Əliyev deyirdi: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir". Qərbi Azərbaycan ölkəmizin tarixinə görə ən qədim bölgələrdən biridir. Burada mövcud olan qəbirsanlıqlardakı nadir məzar daş nümunələri, tarixi türk qalaları, məscidlər və s. bu məkanın tarixinin göstəricisidir. Böyük bir irsin nümunələri bu yerlərdədir.

## ZƏNGƏZURDA 115 KƏND YER ÜZÜNDƏN SİLİNDİ

Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olundu. Qərarda Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur qəzası və Şərqi - əhalisinin kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölmək təklif edilirdi. Nəticədə Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi. XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 türk, 91 kürd və 81 erməni kəndi var idi. 1905-1907 və 1914-1920-ci illərdə erməni daşnaklarının törətdiyi qırğınlar nəticəsində bu mahalda çox sayda müsəlman (türklər və kürdlər) həlak olmuşdur. Həmin illərdə Zəngəzurda 115 kənd yer üzündən silinmişdir. 4472 qadın və uşaq ermənilər tərəfindən vəhşiliklə qətlə yetirilmişdir.

## AZƏRBAYCANLILAR TARİXİ DƏDƏ-BABA YURDLARINDAN QOVULDULAR

Zəngəzurun səfalı təbiətə məxsus rayonlarından biri Qarakilsədir. Mənbələrdə qeyd olunur ki, Zəngəzurun ən böyük və səfalı təbiətə məxsus rayonlarından biri Qarakilsədir. Burada 1918-ci ilə kimi 76 kənd olub. Onun 61-də türk tayfaları, 15-də albanlar yaşayıblar. Əsasən sovet hakimiyyətinin bərqərar olmasından sonra Qarakilsəyə xarici ölkələrdən erməni axını başlayıb. Rayon mərkəzindən 15 kilometr aralıda - Salvartı dağının ətəyində yerləşən Comərdli Qarakilsənin ən böyük türk kəndlərindən biri idi. Məlumdur ki, Zəngəzur vaxtilə Gəncə quberniyasının qəzası olub. 1920-ci ildən sonra Zəngəzurun Qafan, Gorus, Qarakilsə və Mehri bölgələri Sovet rəhbərliyi tərəfindən yenicə yaradılmış Ermənistan dövlətinin tərkibinə verilib. 1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 389 məscid fəaliyyət göstərib. İrəvan quberniyasında məscidlərin artma dinamikası - 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscidin filialları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Cicimli 1, Cicimli 2, Qaroaçalı, Seydlər, Mollalar, Təzə Kilsə, Nərcan, Zor, Əfəndilər, Pasan, Xurtekes, Hacıqəmbər, Qarabağlar, Dəmirçilər, Dondarlı, Kurdaluq, Ulaclı, Saraclı, Dərzili, Oxçi, Kaqlar kəndlərində fəaliyyət göstərib. İrəvan şəhərinin özündə isə XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Çame, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. 1988-ci ildə təkcə Zəngəzurda deyil, Göycədə, Dərələyəzdə, İrəvanda, Vedidə - indiki Ermənistan adlanan torpaqlarda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovulublar.

Əhalisi soyqırım və deportasiyalara məruz qalmış tarixi Azərbaycan ərazilərindən biri də qədim Zəngəzur torpağıdır. 1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 382 şiə məscidi, 9 sünni məscidi fəaliyyət göstərib. İrəvan quberniyasında məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscidin filialları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Mollalar, Təzə Kilsə, Nərcan və digər kəndlərində fəaliyyət göstərib. İrəvan şəhərinin özündə XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Çame, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. İrəvanın Came məscidi kompleksində iri mədrəsə binası da mövcud olub. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib.

## URUD KƏNDİ YAXINLIĞINDAKI ORTA ƏSRLƏR AZƏRBAYCAN MƏZARLIĞI

Qədim tarixi olan Zəngəzur mahalının Qarakilsə rayonunun Urud kəndi ərazisində yerləşən qədim Azərbaycan - türk tarixi-memarlıq abidələri kompleksi olan Uruda daxil olan Urud qalası Urud kəndi yaxınlığında yerləşən tarixi türk qalasıdır. Xatırladaq ki, 1968-ci ildə ermənilər Urud kəndinin adını dəyişərək Vorotan, Urud qalasının adını isə Vorotanberd qoymuşlar. Urud kəndində 1988-ci ilə kimi yalnız Azərbaycan türkləri yaşamışlar. Bu kənddə ermənilərin ilk məskunlaşması 1988-ci ildən sonra olmuşdur.

Onu da qeyd edək ki, abidələr kompleksinin ən mühüm hissəsi isə Urud kəndi yaxınlığındakı orta əsrlər Azərbaycan məzarlığıdır. Məzarlıqda bədii tərtibatlı məzar daşları, qəbirüstü sənduqələr və qoç heykəlləri olmuşdur. Qəbiristanda 13 sənduqə, 4 qoç heykəlli məzar daş qeydə alınmışdı. Məzarlıq ermənilər tərəfindən dağıdılıb, Urud qalasının yalnız xarabalıqları qalır.

Ermənilər Azərbaycan xalqının tarix və mədəniyyətinə dair fakt və həqiqətləri saxtalaşdırmaqla bərabər, abidələrin görünüşünü və yazılarını da süni şəkildə "erməniləşdirmişlər". Məkrli niyyət və mənfur siyasət sahibi olan ermənilərin azərbaycanlılara qarşı törətdikləri vandalizm hərəkətləri hər zaman pislənilib. Tarix ədaləti bərpa edir. Hər zaman belə olub, bu gün də belə olacaq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# COP29-un əhəmiyyəti nədən ibarətdir?



***BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 gələn il Azərbaycanda keçiriləcək. Bununla bağlı qərar COP28-in dekabrın 11-də keçirilən plenar iclasında verilib. Tədbirdə çıxış edən Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev COP28-in yüksək səviyyədə təşkilinə görə Konvensiya Katibliyinə və Birləşmiş Ərəb Əmirliklərinə təşəkkürünü bildirib. Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi Prezident İlham Əliyevin növbəti təntənəli qələbəsidir. Azərbaycan üçün COP29 niyə əhəmiyyətlidir? Hazırlıq prosesləri necə gedir? SİA mövzu ilə bağlı ekoloqların fikirlərini öyrənib.***

**Ekoloq, biologiya üzrə fəlsəfə doktoru Fikrət Cəfərov:** "Ölkəmizə iqtisadi fayda verməyəcəyini deyirlər. Niyə? Belə bir fikir söyləyən hər kəs, sadəcə olaraq, BMT Konvensiyasının tərəflərinin konfransının nə olduğunu bilmir. COP29-un keçirilməsinin əsas prinsipi və vəzifəsi bütün dünya ölkələrinin səylərinin birləşdirilməsidir. ABŞ, Çin və Avropa ölkələri təkbaşına iqlim dəyişikliyi problemini həll edə bilməyəcək. Davamlı inkişaf üçün zəruri olan əsas resurslar qlobal cənub ölkələrində



mövcuddur və texnologiya və potensial əsasən inkişaf etmiş ölkələrdə cəmləşmişdir. Gələcək davamlı inkişaf bu ölkələr arasında qarşılıqlı faydalı əməkdaşlıqdan asılıdır. COP29-u keçirmək missiyasını üzərinə götürən Azərbaycan, ilk növbədə, bu ölkələrin mövqelərinin yaxınlaşması və ölkələr arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün səylərini yönəltdi. Aparılan danışıqlar və görülən işlər onu deməyə əsas verir ki, Azərbaycan artıq böyük səylərə nail olub. Ümid edirəm ki, konfransdan sonra bu, hamıya aydın olacaq. Bundan əlavə, bu il Azərbaycan ən müasir texnologiyalara çıxış əldə edib, artıq milyon dollarlıq müqavilələr bağlanıb və bu, müasir dünyada son dərəcə vacibdir. Bunlar yeni iş yerləri, yeni sabit gəlirlər və Azərbaycanın davamlı inkişafının əsasıdır.

Şəhərimiz bundan necə faydalana bilər? - Hər gün şəhərimdə baş verən dəyişiklikləri müşahidə edirəm. Qısa müddət ərzində şəhər dəyişdi, daha da gözəlləşdi, daha da işıqlandı. Şəhərin tarixi hissəsi bərpa və abadlıqdan sonra yeni rənglər alıb. Ən əsası isə tarixi irs tamamilə qorunub saxlanılır. Bakıya gələnlər təkcə respublikanın paytaxtını deyil, çoxəsrlik tarixə malik şəhəri də görəcəklər. Tariximizə, milli dəyərlərimizə necə diqqətlə yanaşdığımızı görəcəklər. Bu ilin bir neçə ayı ərzində yüz minlərlə ağac və bəzək kolları əkilib. Şəhər çiçəklənən bağçaya çevrilir. Konfransın iştirakçıları və qonaqları parklarımızın, bulvarlarımızın, küçələrimizin onları gül-çiçək, parlaq yaşıllıqlarla necə qarşıladığının şahidi olacaqlar. Əminəm ki, onlar heyran olacaqlar və bu barədə öz "teleqram" kanallarında və "İnstaqram"larında bütün dünyaya danışacaqlar. Bu, Bakımıza böyük fayda gətirməzmi?

Azərbaycan üçün COP29 niyə əhəmiyyətlidir? ÇNL 29 İctimai şüurun dəyişməsinə töhfə verəcək. Əksər azərbaycanlılar iqlim dəyişikliyinin onları necə təhdid etdiyini, qlobal fəlakətin qarşısını almaq üçün hər birimizin nə edə biləcəyini heç vaxt düşünməyiblər. Qısa müddət ərzində cəmiyyətimiz dəyişdi, bir çoxları fikirlərini dəyişmək və bu prosesdə iştirakları, yerləri haqqında düşünmək üçün kifayət qədər məlumat aldılar. Bu, sizə böyük layihələri və proqramları uğurla həyata keçirməyə və başqaları üçün ilham mənbəyinə çevrilməyə imkan verəcəkdir. Çoxlu sayda gənclərin cəlb edilməsi cəmiyyətimizin uğurlu inkişafının rəhmidir.

COP29-la bağlı tədbirlərin mediada işıqlandırılmasını necə görürsünüz? Azərbaycanın media məkanında SOR29 haqqında çox danışılır, çox yazırlar, amma məncə, eyni məlumatlar çoxdur və yaxşı maarifləndirici məlumatlar yoxdur. Dünyada çoxlu sayda uğurlu və əhəmiyyətli layihələr var ki, onları Azərbaycanda da təkrarlamaq olar. Bu cür layihələrin məlumatı və təhlili ictimai maraq və bizim hər birimizin iqlim dəyişikliyi ilə mübarizədə necə iştirak edə biləcəyimiz barədə anlayış yarada bilər. Hər gün təkrarlanan çoxlu sayda rəsmi məlumat var, lakin artıq fəaliyyət göstərən və yaşayış sahələrini yaxşılaşdıran ictimaiyyətin, icmaların və həmfikirlərin birliklərinin iştirakı barədə məlumat yoxdur".

**İqlim dəyişmələrini öyrənən müstəqil ekspert Məhərrəm Mehtiyev:** "COP29-a hazırlıqla bağlı nə lazımdır edirlər. Çox güman



ki, biz bu tədbiri yaxşı keçirəcəyik. Hər şeyi nəzərə almaq mümkün deyil. Kiçik minuslar ola bilər. Paris sazişi imzalananda mən də iştirakçı idim. Orada da o qədər mənfilər var idi ki, bunlar keçərlidir. Çünki işləyən adamlar səhv edirlər. İnsanlar bir-birini o səhvlərə görə bağışlamalıdır. Bu tədbirin əhəmiyyəti çoxdur. Həm siyasi, həm iqtisadi, həm də ekoloji əhəmiyyət kəsb edir. COP-un iqtisadi səmərəsi olmayacaq. Hər bir iş iqtisadi səmərə verə bilmir, o cümlədən ekoloji məsələlər. Ekoloji layihələr çox ağır, maliyyə tələb edən layihələrdir. Ona görə də burada böyük iqtisadi səmərə gözləmək, əlbəttə ki, lazım deyil. Ölkəmizə hər tərəfdən basqılar var. Amerika, Avropa ölkələrinin basqıları boş yerə deyil. Öz ermənilərini müdafiə edirlər".

**Ekoloq, Jurnalistlər Birliyinin sədri Cəmşid Bəxtiyar:** "COP29 kimi tədbirin ətraf mühit problemlərinin həllində rolu danılmazdır. Ona görə də bütün planetimiz üçün bu cür tədbirlərin keçirilməsi böyük əhəmiyyətə malikdir. O cümlədən, Azərbaycan da bu dünyanın bir parçası olduğuna görə onun bizə aid olmadığını demək böyük qəbahətdir. Digər tərəfdən bu tədbirin Azərbaycanda keçirilməsi-



nin bizə əhəmiyyəti barədə çox danışmışıq. COP29-un Azərbaycanda keçirilməsi Azərbaycanda ətraf mühit problemlərinin həllinə xüsusi təkan verəcəkdir. Həm də biz onun siyasi önəmini də vurğulaya bilərik. Hərçənd biz ətraf mühit problemlərindən danışdığımıza görə bu barədə siyasətçilərin danışması daha yaxşıdır. COP29-un ətraf mühit problemlərinin həlli üçün Azərbaycanda keçirilməsi Azərbaycandakı problemlərin həllinə xüsusi təkan verməsi gözləniləndir. Hər halda biz bunu gözləyirik. Başqa cür olması da mümkün deyil.

Mətbuatdan izlədiklərimiz bu qənaətə gəlməyə imkan verir ki, hazırlıqlar çox yüksək səviyyədə gedir. Azərbaycan ölkə olaraq ev sahibliyinə çox ciddi hazırlaşır. Ölkəmizə iqtisadi fayda verməyəcəyini deyirlər, bununla o qədər də razı deyiləm. Bu iqtisadi tədbir deyil, amma digər tərəfdən bu tədbirin Azərbaycanda keçirilməsinin Azərbaycanda yaşıl enerji istehsalının inkişafına xüsusi təkan verəcəyini gözləmək olar. Eyni zamanda bu yaşıl enerji istehsalının da Azərbaycanın iqtisadiyyatına qatqısını təsəvvür etmək o qədər də çətin deyil. Bu baxımdan həm də iqtisadi fayda verməyəcəyini demək də doğru deyil. Gəlir baxımından, əlbəttə, ev sahibliyi etmək böyük xərclər tələb edir. Azərbaycan bu tədbirin keçirilməsinə kifayət qədər vəsait qoyacaq. Amma bunu nəzərdə tutub deyirlər, yenə də dediyim kimi yaşıl enerjinin istehsalının inkişafına təkan qaçılmazdır. Bunun da iqtisadi faydası olacaq.

Ölkəmizə bu qədər insanların gəlməsi ilə istər-istəməz ölkəmizdə qonaq qalacaqlar. İstənilən halda onların burada xərclədikləri pullar ölkəmizin, şəhərimizin büdcəsinə təsir edəcək. Hərçənd ki, gələn qonaqların bir çox xərcləri qarşılanacaq, onların otellərdə qalması, qidalanmaları nə qədər pulsuz olsa da, yenə də qonaqdırlar. Digər yerlərdə pul xərcləməyə də, yəqin ki, həvəsləri olacaq".

**Coğrafiya İnstitutunun Ekocoğrafiya şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Ənvər Əliyev:** ""BMT, Parisin çıxardığı qərarın ən böyük mahiyyəti odur ki, siyasi faktordur. Planet öz qaydasında gedir, planetdə elə bir dəyişiklik yoxdur. Çünki o iqlimi yaradan, milyon il ərzində formalaşdıran mahiyyət dəyişmir. İqlim şəraiti öz yerindədirsə, burada dövrülük məsələsi var. 70-ci illərdə Xəzər dənizi quruyana qədər o zaman da iqlimdə dəyişiklik var idi. Sonda məlum oldu ki, bu, adi şeydir. Bu hadisələr tarixən yüzlərlə dəfə təkrar olunub. Dəyişilən odur ki, son 70 ildə planetin əhalisi təxminən iki dəfə artıb. Heyvandarlıq ən çox atmosferə karbon qazı buraxan təbəqədən biridir. Planetin əhalisini heyvandarlıqla təmin etmək nə qədər çətindir. Biz COP haqqında öhdəlik götürmüşük. Tədbir də keçirməliyik. Noyabrda dünyanın müxtəlif ölkələrindən 80-100 minə qədər nümayəndələr gələcək. Bu, bizim üçün bir sıra siyasi faktorda, problemlərimizin həlli yolunda da fayda verəcək. Azərbaycan dünyanın ən çox münaqişələrindən əziyyət çəkən ölkələrindən idi. Belə olan halda həmin ərazilərdəki texnogen çirklənmələr, xüsusən hərbi texnogen çirklənmələr özünü göstərir. Bitki örtüyünün faciəli dəyişiklikləri, torpağın məhsuldarlığı hamısı pul tələb edir. Su mənbələrimiz, suvarma sistemlərimiz, infrastruktur məhv olub. Bunların hamısı COP-da deyilməlidir. Azərbaycana ayrılan puldan mütləq kömək la-



zım olacaq. Çünki bu hadisələr 1-2 ilə yox, 10 illiklər ərzində düzəlməlidir. COP-un hazırlığı ilə dövlətin xüsusi komissiyası var, məşğul olur. Birinci dəfədir ki, Azərbaycanda bu istiqamətdə tədbir keçirilir. Ona görə də bəzi problemlər də ola bilər. Çalışmaq lazımdır ki, aradan götürək, hələ vaxta var. Şəhərin bütün sistemləri saat kimi işləməlidir. Təchizat yüksək səviyyədə olmalıdır. Əhali də qonaqlara qarşı diqqətli olmalıdır. Şəhər nəqliyyatı, infrastrukturlar, ictimai iaşələr hər şeyi başa düşməlidir ki, bəzən insanın ölkəsində bir dəfə olan adam elə təəssüratla gedir ki, ömrü boyu onu xatırlayır. Bunlara fikir vermək lazımdır".

***Söylü Ağazadə***

# ““Qarabağ Azərbaycandır!”
## deyiriksə, orada Azərbaycan xalqı yaşamalıdır”

“”Böyük Qayıdış”ın müxtəlif məqsədləri var. Onun demoqrafik siyasətdən tutmuş, əmək bazarının doldurulmasından, iqtisadi artımdan tutmuş müxtəlif cəhətləri var”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Fərhad Mehdiyev deyib. O bildirib ki, əvvəlcə onu qeyd etmək lazımdır ki, burada strateji məqsəd var: ”Çünki beynəlxalq hüquqda bu gün üçün torpaq parçası sadəcə torpaq olaraq əhəmiyyət kəsb etmir. Həm də onun üzərində yaşayan xalqla birlikdə əhəmiyyət kəsb edir. Dolayısı ilə biz ”Qarabağ Azərbaycandır!” deyiriksə, orada Azərbaycan xalqı yaşamalıdır. Bu, bizim üçün məcburiyyətdir. Necə ki, ermənilər əslində işğal etdikləri Qarabağda yaşamırdılar. Ona görə də onlar legitimlik əldə edə bilmirdilər. Bizim belə bir öhdəliyimiz var ki, ”Qarabağ Azərbaycandır!” dediyimiz əraziyə Azərbaycan xalqının yerləşməsini təmin edək. Həm də biz bununla onu göstəririk ki, biz oranın əsl sakinləriyik.

”Böyük Qayıdış” məsələsi ciddiyə alınmalıdır və əhalinin oraya geri qayıtması təmin edilməlidir. Azərbaycanda keçirilən bir çox beynəlxalq tədbirlərin məqsədi həm də Azərbaycanın əldə etdiyi qələbəni digər ölkələrə de-fakto tanıtmaqdır. Məsələn, COP29 tədbiri keçiriləcək, oraya qatılacaq hər hansı dövlət başçısı Azərbaycanın addımını legitim hərəkət kimi qəbul edir. Bu qəbildən digər beynəlxalq tədbirlər də tez-tez ölkəmizdə keçirilir. Bu işin strateji və geosiyasi cəhətidir”.



Onun sözlərinə görə, işin digər cəhətləri də var: ”Qarabağda xeyli sayda məhsuldar torpaqlar var. Əhalinin oraya qayıtması, iqtisadiyyatın canlanması ilə ciddi dərəcədə inkişafıdır. Bunun üçün də Qarabağ inkişaf üçün kifayət qədər yararlı və əlverişli bölgədir. Çünki torpaqları çox münbitdir, yerləşdiyi ərazi çox yaxşıdır, kifayət qədər yeni yollar tikildi. İnfrastruktur olaraq yollar çox vacibdir. Zəfər yolu tikildi, əvvəlki yollar da təmir olunur. Artıq Vətənimizdə işğalçı qalmayıb. Sülhməramlılar da gediblər. Bu infrastruktur daha da yaxşı inkişaf edəcək. Əhalinin qayıtması, məşğulluğun artırılması, ümumdaxili məhsulun artması, turizmin canlanması real, perspektiv şəkildə qarşımıza çıxır. Bunun üçün ora əhalinin qayıtmasına ehtiyac var. Çünki insanlar bir-biri üçün iş yeri yaradır. Füzulinin mərkəzində tikilmiş bir neçə bina, məktəb var, Füzulidən qaçqın düşən vətəndaşlar var. Bununla belə orada sosial, məişət, əyləncə, iaşə obyektləri olmalıdır. Bu, biznes deməkdir. Hal-hazırda ola bilsin ki, kimsə orada restoran açmaq istəmir. Fikirləşir ki, qoyacağı sərmayə ona sərf etmir. Amma əhali artdıqdan sonra sərmayəni də qoyacaq. Oradakı obyektlərin də, əhalinin də sayı bir-birinə mütənasib olaraq artacaq”.






YANAŞMA

ümumdaxili məhsulları artırırıq. Əhalinin məşğulluğunu artırırıq. Çünki yeni iş yerləri açılır, insanlar gedib orada işləyirlər. Ümumdaxili məhsulun həm də kənd təsərrüfatı hissəsini artırırıq, həm də xeyli turistik mərkəzlər olacaq. Bununla da xaricdən valyuta gəlişini təmin edəcəyik. Digər tərəfdən Bakı şəhərinin sıxlığının azaldılması həmişə dildədir. Onun bircə yolu digər regionların

**Söylü**

# “Gürcüstanda çox ciddi proseslər gedir”

“Qərb bütün Cənubi Qafqazı özünün nəzarəti altına salmağa çalışır”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.O bildirib ki, bu məqsədlə də Gürcüstandakı qarşıdurmanı təşkil edib: ”Gürcüstanda vəziyyət onsuz da o qədər də ürəkaçan deyildi. Bidzina İvanişvili deyilən milyoner Gürcüstanda bir çox demokratik nailiyyətlərin üstündən xətt çəkmişdi. Amma bununla belə Gürcüstan inkişaf edirdi. Əhalinin rifah və halı yaxşı idi. Rusiya ilə münasibətləri qaydaya sala bilmişdi. Bütün bunlar Amerika, Qərbi çox acıqlandırırdı. Zənnimcə, Qərb Gürcüstanı tamamilə Qərbə çəkib aparmaq istəyir. Burada tamamilə demokratik cəmiyyətin bərqərar olmasını istəyir. Bu demokratik cəmiyyət B.İvanişvili və onun ətrafında olanların, eləcə də, Rusiya ilə əlaqələrin üstündən tamamilə xətt çəkəcək.Gürcüstanda çox ciddi proseslər gedir. Əhalinin siyasi fəallığı yetərincə yüksəkdir. Onu da qeyd edim ki, bu proseslər Qərb-Rusiya qarşıdurması fonunda baş verir və hesab edirəm ki, Gürcüstanda vətəndaş qarşıdurması, o cümlədən hakimiyyət-müxalifət qarşıdurması daha da kəskin xarakter alacaq. Gürcüstanın müxalifət partiyaları eynicinsli deyil və müxtəlif partiyalar bir ideya ətrafında birləşiblər. Bu ideya da təbii ki, Gürcüstanın Qərb dünyasının bir hissəsinə çevrilməsidir. Müxalifət parlament seçkilərində də eyni blokda çıxış etmək niyyətindədirlər. Gizlətmək lazım deyil ki, Qərb Gürcüstandakı demokratik qüvvələrə açıq dəstək verir və bu da Gürcüstanda Qərb-Rusiya qarşıdurmasının əsas göstəricisidir. Bu üzdən də Gürcüstan hakimiyyəti ilə Qərb arasında münasibətləri tamamilə korlayıb”.



”Heç kimə sirr deyil ki, Gürcüstanda hakimiyyətdə olan ”Gürcü Arzusu” partiyasının lideri Bidzina İvanaşvili Rusiyanın adamıdır və buna görə də hakim partiya mənsubları daha çox rusiyapərəst siyasətçilər kimi tanınırlar. Lakin buna baxmayaraq bu günlərə qədər ”Gürcü Arzusu” partiyasının Qərb ölkələri ilə normal münasibətləri vardı. Hətta Gürcüstan Avropa İttifaqına üzvlüyə namizəd belə qəbul olundu. Ona görə də Bidzina İvanaşvilinin də, ”xarici agentlər haqqında” qanunun qəbul olunması Gürcütan hakimiyyəti ilə Qərb ölkələri arasındakı bütün ipləri qopardı. Çünki bu qanunun məhz Rusiyanın tələbi ilə qəbul olunması ilə bağlı iddialar var” - deyə o, əlavə edib.

**Söylü Ağazadə**

***Son illərdə şokolad həvəskarları arasında məşhurlaşan bir çox müxtəlif şokolad növləri var. Xüsusilə Yaxın Şərqdən gələn bəzi ləzzətlər dünyanın hər yerində maraq doğurur. Bu şokolad növlərindən biri "Dubay şokoladı" kimi tanınır. Halbuki Türkiyədə bu şokolad fərqli çeşiddə satılır və tanınır, içi kadayıf və püstə, çöldən isə normal südlü şokoladla örtülür.***

# Məşhur Dubay şokoladı XƏSTƏLİK YARADIR?

## Bəs, Dubay şokoladı nədir? Onun hansı fayda və zərərləri var?



SİA mövzu ilə bağlı araşdırma aparıb. Dubay şokoladı Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ən məşhur şəhərlərindən biri olan Dubayda istehsal olunan və ümumiyyətlə lüks və keyfiyyətli inqrediyentlərlə hazırlanan şokolad növüdür. Dubay bütün dünyada turizm və lüks alış-veriş məkanı kimi tanınır. Şokoladlar həm də bu şəhərin zərif və parlaq simasını əks etdirir.

Dubay şokoladları, adi şokoladlardan fərqli olaraq, adətən nadir və bahalı inqrediyentlərlə hazırlanır. Tərkibində qızılı yarpaqlar, ekzotik ədviyyatlar, saf kakao, xurma ekstraktı və yerli ətirlər kimi maddələr var. Bundan əlavə, Dubayda istehsal olunan şokoladlar təkcə dadı ilə deyil, estetik görünüşü ilə də diqqət çəkir. Onların qızıl yarpaq örtüyü və zərif qablaşdırma Dubay şokoladını sənət əsərinə çevirir.

## Dubay şokoladı necə hazırlanır?



Dubay şokoladının hazırlanması prosesi və inqrediyentləri təqdim edirik:

Kakao: Dubay şokoladının əsasını yüksək keyfiyyətli kakao dənələri təşkil edir. Ümumiyyətlə, ən keyfiyyətli kakao paxlası Cənubi Amerika və ya Afrikadan gətirilir. Dubay şokoladlarında istifadə edilən kakao 70-90% saf ola bilər ki, bu da şokoladın sıx dadını təmin edir.

Şəkər: Şokoladın növünə görə şəkərin miqdarı dəyişir. Dubayda hazırlanan şokoladlarda rafine şəkər yerinə ümumiyyətlə xurma şəkərinə və ya üzvi şəkərə üstünlük verilir. Bu, Dubay şokoladına daha təbii və yumşaq ləzzətlər əlavə edir.

Xurma Çıxarışı: Xurma Yaxın Şərq mətbəxinin əvəzolunmaz hissəsidir və Dubay şokoladlarında tez-tez istifadə olunur.

Ədviyyatlar: Dubay şokoladları Yaxın Şərqdən gələn ekzotik ədviyyatlarla ətirlənə bilər. Zəfəran, hil və darçın kimi ədviyyatlar şokoladın dadını zənginləşdirir. Bundan əlavə, şokoladın içinə gül suyu və portağal çiçəyi suyu kimi ləzzətlər əlavə edilir.

Qızıl yarpaqlar: Dubay şokoladlarını digərlərindən fərqləndirən ən böyük xüsusiyyətlərdən biri onlara əlavə edilən yeməli qızıl yarpaqlardır. Arzu edilərsə, bu şokoladlar qızılı yenilənə bilən yarpaqlarla örtülə bilər.

Qoz-fındıq: Dubay şokoladlarında tez-tez fındıq, badam və püstə kimi qoz-fındıq istifadə olunur. Bu qoz-fındıq həm dad, həm də sağlamlıq baxımından şokolada qatqısını verir.



## Dubay şokoladının faydaları

Ümumiyyətlə şokolad bəzi sağlamlıq faydaları ilə tanınır, lakin Dubay şokoladı öz dəbdəbəli və təbii maddələri ilə bu faydaları daha da artıra bilər. Dubay şokoladının mümkün sağlamlıq faydaları bunlardır:

Antioksidantların mənbəyi: Yüksək keyfiyyətli kakao paxlalarında flavonoidlər adlanan güclü antioksidantlar var. Bu antioksidanlar bədəni sərbəst radikalların zərərindən qoruyur və ürək sağlamlığını dəstəkləyir. Xüsusilə tərkibində 70% və ya daha çox kakao olan şokoladlar ürək-damar sağlamlığına müsbət təsir verə bilər.

Enerji verir: Dubay şokoladının tərkibində xurma ekstraktı və kakao kimi təbii enerji mənbələri var. Xüsusilə sıx kakao tərkibi bədənin enerji səviyyəsini artıra bilər. Xurma ekstraktı həmçinin sürətli enerji verir ki, bu da idmançılar və ya çox işləyənlər üçün xüsusilə faydalıdır.

Yaxşı hiss etdirir: Şokoladın beyində serotonin səviyyəsini artırdığı bilinir. Serotonin xoşbəxtlik hormonu kimi tanınır və şokolad istehlakı əhval-ruhiyyəni artıra bilər. Dəbdəbəli Dubay şokoladları təkcə dadı ilə deyil, həm də estetik görünüşü və zərif təqdimatı ilə xoş təcrübə təqdim edir.

Mineral tərkibi: Dubay şokoladında istifadə edilən kakaonun tərkibində maqnezium, dəmir və sink kimi mühüm minerallar var. Bu minerallar bədənin ümumi sağlamlığını dəstəkləyir və immunitet sistemini gücləndirməyə kömək edə bilər.

Təbii şəkər alternativləri: Xurma şəkəri və ya üzvi şəkər kimi təbii dadlandırıcılar təmizlənmiş şəkərlə müqayisədə daha sağlam seçimlər təmin edir. Xurma ekstraktı aşağı glisemik indeksi sayəsində qan şəkərini sürətlə yüksəltmir ki, bu da xüsusilə şəkər həssaslığı olanlar üçün əhəmiyyətli bir üstünlükdür.

## Dubay şokoladının zərərləri

Şokoladın bir çox faydası olsa da, həddindən artıq istehlak edildikdə bəzi mənfi təsirlər də yarana bilər. Dubay şokoladının potensial zərərləri bunlardır:

Yüksək kalorili məzmun: Lüks şokoladlar ümumiyyətlə daha sıx bir quruluşa və daha yüksək kalorili məzmuna malikdir. Həddindən artıq şokolad istehlakı çəki almağa və piylənməyə səbəb ola bilər. Böyük miqdarda Dubay şokoladını xüsusilə müntəzəm olaraq istehlak etmək, gündəlik kalori qəbulunu tez bir zamanda artıra bilər.

Şəkər tərkibi: Təbii dadlandırıcılardan istifadə olunsa da, şokoladın tərkibində şəkər var. Yüksək miqdarda şəkər istehlak etmək uzun müddətdə diş çürüməsi, qan şəkərinin dəyişməsi və diabet riskini artıra bilər.

Kofein tərkibi: Kakao təbii olaraq kofein ehtiva edir və bəzi insanlar kofeinə həssas ola bilər. Həddindən artıq miqdarda şokolad istehlakı kofein qəbulunu artıraraq, yuxusuzluq, əsəbilik və ürək döyüntüsü kimi simptomlara səbəb ola bilər.

Tərkibi allergik reaksiyalara səbəb ola bilər: Dubay şokoladlarında istifadə edilən bəzi inqrediyentlər (məsələn, qızıl yarpaqlar, ekzotik ədviyyatlar) nadir də olsa, allergik reaksiyalara səbəb ola bilər. Allergiyası olan insanlar bu cür lüks inqrediyentləri ehtiyatla istehlak etməlidirlər. Asılılıq yaradan xüsusiyyətlər: Şokolad tərkibindəki feniletilamin və teobromin kimi maddələrə görə asılılıq yarada bilər. Dubay şokoladı kimi yüksək keyfiyyətli şokoladlar istehlakçını daha çox yeməyə təşviq edə bilər.

Dubay şokoladı estetika və dad baxımından şokolad dünyasında prestij simvoluna çevrilib. O, keyfiyyətli kakao, xurma ekstraktı, ekzotik ədviyyatlar və qızılı yarpaqlar kimi inqrediyentlərlə Dubayın dəbdəbəli həyat tərzini əks etdirir. Lakin bu şokoladın faydaları və zərərləri nəzərdən qaçırılmamalıdır. Dubay şokoladı balanslı şəkildə istehlak edildikdə həm sağlamlıq üçün faydalı ola bilər, həm də unikal şokolad təcrübəsi təqdim edir.

***Ayşən Vəli***

# Ermənistanın Avropa yuxusu







Ermənistandakılar yenə eyforiyadadırlar, özlərinin uydurduğu qeyri-real dünyada, Avropanın tam ağuşunda olduqlarını düşünürlər. Rusiyanın qucağından qaçıb avropalılara sığınmaq planları quran ermənilər Rusiyanın imperiya caynağından qurtulmağın nə qədər çətin, ağrılı olduğunu əsla ağıllarına gətirmirlər. XVIII-XIX əsrlərdə Çar Rusiyası tərəfindən dünyanın dörd bir yanından Azərbaycan torpaqlarına köçürüləndə, onlara dövlət və mülkədar torpaqlarından yer veriləndə, İrəvan xanlığını İrəvan quberniyasına çevirib sonradan ermənilərə dövlət quranda nədənsə Avropa ”hay”ların yadına düşmürdü. Bu gün Qərbdən kabab iyi gəlir deyə ac və yalavac ermənilər ora üz tuturlar. Halbuki, Çar Rusiyasının, xüsusən də çarın ucqarlar siyasətində ermənilərə böyük üstünlüklər verməsində bu ələbaxan tayfanın imperiyaya və imperatora olan ”sədaqət”ləri əsas götürülürdü. Amma zaman göstərdi ki, bu, yanlış siyasət imiş, ermənilər hər an ona yaxşılıq edənləri satan, ona arxa çevirən ibtidai qəbilə düşüncəli sürü imişlər.

Ermənistan Azərbaycan torpaqları hesabına yaradılmış qondarma dövlət olması kimsəyə sirr deyil. Bunun üçün arxivlərə müraciət etməyə, elmi araşdırmalar aparmağa da lüzum yoxdur. Çünki tarixdə heç vaxt, xüsusəndə indiki coğrafiyada ”Ermənistan” adlı dövlət mövcud olmayıb. 1914-cü ilə ABŞ-ın prezidenti olmuş Vudro Vilsonun kağız üzərində qalmış qərarı ilə ”yaradılmış” qondarma ”Böyük Ermənistan” qurulmağa macal tapmasa da, Çar Rusiyasının düzməcəsi ilə Ermənistan dövləti yaradıldı. Cəmi 9-10 min kvadrat kilometr ərazisi olan Ermənistan bolşeviklərin hakimiyyətə gəlməsindən sonra yenə də Azərbaycanın Göyçə, Basarkeçər, Dərələyəz və Zəngəzur mahalları hesabına genişləndirilərək 29,8 min kvadrat kilometrə çatdırıldı. İştah diş altda olar, deyib atalar. Ermənilərin proletariat diktaturasının ”sərmayəsi” hesabına yaradılmış ”Dağlıq Qarabağ Muxtar Vilayəti” isə XX əsrin son onilliyində başlanacaq böyük müharibənin fitili rolunu məharətlə oynamışdır. 30 il Ermənistanın işğalı altında qalan, talanan, insanları məhv edilən, əsir və girov götürülən Qarabağ 4 il bundan əvvəl Prezident, Ali Baş komandan İlham Əliyevin mahir sərkərdəliyi altında düşmən tapdağından azad edildi. Məğlubiyyət acısını dadan ermənilər bunun günahını I Qarabağ savaşında tam olaraq ”hay”ların tərəfində dayanan, lakin II Qarabağ müharibəsində neytral qalan Rusiyada gördülər və ondan üz çevirdilər. İndi ağıllanıblar və avropalaşmaq iddiasına düşüblər. ”Böyük bacı”sı Fransa İrəvana cənnət vəd edib, əgər deyilənlərə düzgün əməl edilsə ermənilər Avropa ailəsinə qəbul ediləcək.

### Avropaya üzvlüyün ”dəqiq tarixi”

Keçmiş kinorejissor, ictimai-siyasi xadim, Ermənistan Avropa Partiyasının (EAP) lideri Tiqran Xzmalyanın Van Radiosuna müsahibəsində Ermənistanın Avropa İttifaqına daxil olmasının dəqiq tarixini qeyd edib və Şengen vizalarının verilməsində çətin bürokratik prosedurların gözlənilməz günahkarını göstərib. ”Tiqran, mənə de ki, başa düşdüyüm kimi, sən bir neçə ildir bu işlə məşğul olan, ölkəsinin gələcəyini bunda görən, bəzi şeyləri planlaşdırmalısan. Planlarınız nədir? Ermənistan nə vaxt Avropa Birliyinin bir hissəsi olacaq?”, - deyə aparıcı soruşub.

”2030-cu ildə” deyə Xzmalyan lakonik şəkildə cavab verib, ”Avropa artıq buna qərar verib”. Aparıcı Aİ ölkələrinə viza almaqda çətinliklərdən şikayətlənib: ”Mən bütün bu cəhənnəm dairələrindən keçməliyəm, viza almalıyam...”. Avropa Partiyasının lideri gözlənilmədən bəyan edib ki, ”əslində bunlar avropalı deyil, Ermənistan XİN-in xalqı aldatması, mümkün qədər çətinə salması üçün açıqlanmayan bir qərar var”, deyə bildirib. ”2030-cu ildə xalqı aldatmağın mənası olmayacaq. Sərhədlər açıq olanda qaçmağa ehtiyac qalmır. Nədən qaçırlar? Uşaqları ordudan, müharibədən xilas etmək üçün qaçırlar, iqtisadi sıxıntılardan qaçırlar, qanunsuzluqdan qaçırlar. Bu problemlər həll olunmayana qədər biz Avropaya üzv olmayacağıq. Bizim isə cəmi 5-6 ilimiz qalıb və biz bütün bunları etməliyik. Gecikmə hakimiyyətin oğurluğudur, onlar bizim tarixi vaxtımızı oğurlayırlar”, - deyən EPA rəhbəri erməni xalqının bir ildən sonra hakimiyyətini dəyişəcəyini istisna etməyib.

### Ermənistanın Ukrayna, Gürcüstan və Moldovadan aldığı dərslər

”Gəlin əlimizi ürəyimizə qoyub özümüzə sual verək: Qərbdə də bunu istəyirlər, ölkəmizi bərabərhüquqlu tərəfdaş kimi qəbul etməyə hazırdırlarmı? Beynəlxalq Respublika İnstitutu adından Breavis tərəfindən 2024-cü il sentyabrın 13-dən 25-dək telefon müsahibələri (CATI) vasitəsilə həyata keçirilən ictimai rəy sorğusunun məlumatları, baş verən hadisələr başa çatdıqdan sonra, hazırda qiymətləndirmək üçün xüsusilə vacibdir. Moldovada prezident seçkiləri və ölkənin Avropaya inteqrasiyası məsələsi ilə bağlı referendum keçirilib.

Ən yüksək vəzifə üçün 11 namizəd mübarizə aparıb, favoritlər Moldovanın hazırkı prezidenti Maia Sandu və keçmiş baş prokuror Aleksandr Stoyanoqlo idi. Sandu Avropa yolunun tərəfdarıdır, Stoyanoqlo rusiyayönlü siyasətçi hesab olunur. O, seçicilərin 94%-dən çoxu inteqrasiyanın əleyhinə səs verdiyi Moldovanın muxtar bölgəsi olan Qaqquziyadandır. Mərkəzi Seçki Komissiyası protokolların 98%-ni emal etdikdən sonra hazırkı prezident 41,86%, onun rəqibi isə 26,34% səs toplayıb. Namizədlərdən heç biri 50% səs toplaya bilmədiyi üçün ikinci tur tələb olunacaq. MSK artıq seçkilərin ikinci turunun noyabrın 3-də keçiriləcəyini açıqlayıb. Və orada, görünür, ölkənin rusiyayönlü eks-prezidenti İqor Dodonun rəhbərlik etdiyi Sosialist Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Aleksandr Stoyanoqlo qalib gələcək.

Məsələ burasındadır ki, ikinci turda həm ”Bizim Partiya”nın lideri Renato Usatii, həm də ATU Qaqauziyanın keçmiş rəhbəri İrina Vlah Stoyanoqlonun lehinə səslərini verəcəklər. Digər rusiyapərəst namizədlər var ki, onlar öz elektoratını Sanduya və buna görə də Moldovanın Avropa seçiminə qarşı çıxmağa çağıracaqlar. Bəli, ölkənin Avropaya inteqrasiyası ilə bağlı referendumun nəticələri kifayət qədər yaxındır - yarısı ”lehinə”, yarısı ”əleyhinə”. Amma tamamilə aydındır ki, Stoyanoqlo qalib gəlsə, rəsmi Kişinyovun xarici siyasət kursu kəskin şəkildə dəyişəcək. Və burada bunun baş verdiyinə görə Sandunu günahlandırmalıyıq. Çünki moldovalılar rusiyapərəst namizədlərə səs verdilər, çünki onlar ondan və ölkəni Avropaya aparmaq istəyindən məyus olublar.

Əslində moldovalılar artıq Avropadadırlar. Aİ-də bu ölkənin vətəndaşları üçün mövcud vizasız rejim moldovalılara bu ölkənin standartlarına uyğun olaraq yaxşı pul qazanmağa kömək edir. Onların ailələri Aİ ölkələrindən orada işləyən moldovalıların köçürmələri hesabına yaşayırlar. Üstəlik, xeyli sayda moldovalı çoxdan Rumıniya pasportu alıb ki, bu da Avropada iş tapmaq məsələsini tamamilə sadələşdirib. Lakin bütün bunlara baxmayaraq, moldovalılar Sandu və Aİ-yə üzvlük lehinə son və güclü seçim etməyiblər. Bu da başqa bir siqnal olmalıdır.

Əlbəttə, hər bir ölkə hansısa birliyə, ittifaqa qoşulmaqda sərbəstdirlər. Ermənistan da öz yolunu seçə bilər, öncə demokratiyanı inkişaf etdirməli, Qərb dəyərlərinə qoşulmalıdır. Amma ermənilər əllərini ürəklərinin üstünə qoyub deyə bilərlərmi ki, Qərbdə də onları istəyirlər və Ermənistanı bərabərhüquqlu tərəfdaş kimi qəbul etməyə hazırdırlar. Ukrayna, Gürcüstan və Moldovanın təcrübəsi göstərdi ki, şübhə üçün əsaslar var. ABŞ, NATO və Aİ Rusiyanın Ukraynaya qarşı müharibəsinin qarşısını ala bilmədi və ona qalib gəlməyə kömək edə bilmədi. Kollektiv Qərbin köməyi son dərəcə dozalı idi və qalır və rus qoşunları getdikcə daha çox Ukrayna yaşayış məntəqələrini işğal edir. Gürcüstan 2008-ci ilin avqust müharibəsi ilə bağlı kədərli təcrübəsini xatırlayaraq, ABŞ və Aİ-yə açıq meylin əleyhinədir. Və biz görürük ki, artıq Gürcüstana qarşı da sanksiyalar tətbiq olunur. Gürcüstan həmçinin Aİ ilə vizasız statusundan məhrum edilib və əhəmiyyətli maliyyə yardımından məhrum olub. Moldovada Rusiyayönlü bir adam hakimiyyətə gələrsə, eyni şey onu da gözləyə bilər. Ermənistan isə bütün bunlara baxaraq başqalarının səhvlərindən dərs almalıdır.

### ”Qarabağ Azərbaycandır” və bu qədərmi?

Yalan və yalanın davamlı dozasının bir daha şahidi olduq. Bunu Milli Assambleyanın tribunasında ”Ermənistan” fraksiyasının üzvü Artsvik Minasyan deyib. ”Milli Assambleyanın nə az, nə çox spikeri ”artsax”ın Azərbaycanın ərazisi kimi tanınması ilə bağlı ittihamlarla nəinki Azərbaycan diskursunu ifadə etmir, həm də milli qüvvələri hansısa mərhələdə eyni əməlləri törətməkdə ittiham edir.

Milli Assambleyanın spikeri Alen Simonyan bildirib ki, bugünkü müxalifət hakimiyyətdə olanda ”Artsax”ı müstəqil dövlət kimi tanımayıb və Azərbaycanın bir hissəsi kimi tərk edib. ”İnzibati-ərazi bölgüsü haqqında qanunu müzakirə edib qəbul edəndə, buranın Azərbaycan olduğunu bəyan edəndə Simonyan qeyd edib ki, fakt faktlığında qalır: ”Bu ərazi Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisi olub və qalır”.

2020-ci ildən bizi dün 4 il ayırır, eyni ilin eyni ayında Ermənistanda nələr yaşanırdı? Ermənilər çox iddialı idilər, imkanları olsaydı Azərbaycanı hər anlamda cəzalandırardılar. Amma zaman onların xeyirinə deyildi, bu dəfə çox güclü Azərbaycanla baş-başa idilər. Beynəlxalq ictimaiyyət də bizim haqlı olduğumuza inanırdı, erməniləri öz adı ilə - işğalçı deyə çağırırdı. Bəli, Azərbaycan zamanı düzgün seçmişdi. 10 noyabr üçtərəfli Bəyanatından sonra baş verə hadisələri Bakı planlı şəkildə tərtib edib, onu zərgər dəqiqliyi ilə həyata keçirirdi. Avropanın aparıcı ölkələri ac-yalavac Ermənistanın əvəzinə Azərbaycan kimi inkişaf etmiş bir ölkəni öz sıralarında görmək istərdi. Amma Azərbaycan buna gedərmi? Azadlığı, müstəqilliyi boş vədlərə dəyişmək olarmı?

***V.VƏLİYEV***



# "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" qanuna dəyişiklik ilk oxunuşda qəbul edilib

Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri şəxsin həmin subyektlərdə həqiqi hərbi xidmətə (işə) qəbul olunmasından imtina edilməsi səbəblərini açıqlamaq öhdəliyi daşımayacaqlar. SİA xəbər verir ki, bununla bağlı "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" qanuna təklif edilən dəyişiklik layihəsi parlamentin dünənki plenar iclasında müzakirəyə çıxarılıb. Qeyd edilib ki, dəyişikliyin əsas məqsədi həmin subyektlərdə fəaliyyət istiqamətlərinə uyğun olaraq konfidensiallığın qorunub saxlanılmasıdır.

Layihəyə əsasən, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşlarının bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə Azərbaycanın kəşfiyyat və əks-kəşfiyyat subyektlərinin hüquqlarının genişləndirilərək xarici dövlətlərin xüsusi xidmət və hüquq mühafizə orqanları ilə müvafiq proqramlar çərçivəsində kadrların hazırlanması, təkmilləşdirilməsi və ixtisaslarının artırılması sahəsində də əməkdaşlığın həyata keçirilməsi nəzərdə tutulur. Layihə səsverməyə qoyularaq birinci oxunuşda qəbul edilib.

# "Bakcell" UNEC-də keçirilən İnnovasiya Həftəsinin əsas tərəfdaşıdır

**İnnovasiya və sürət lideri "Bakcell"inəsas tərəfdaşlığı ilə UNEC-də İnnovasiya Həftəsi keçirilir. Tədbirin ilk günündə "Bakcell"in nümayəndələri "Telekommunikasiyada qlobal trendlər: "Bakcell"in innovativ məhsul və həlləri" və "Dəyişən dünyada böyük dəyişikliklər qarşısında aktual qalmaq" mövzularında panel müzakirələrə qatılıblar.**

"Bakcell"in İctimaiyyətlə əlaqələr və korporativ kommunikasiyalar üzrə rəhbəri Aysel Süleymanova və Marketinq direktoru Elxan Sadıqzadə tələbələrə brendin rəqəmsal erada mövqeləndirilməsi, müasir çağırışlar və imkanlar, rəqəmsal imic formalaşdırılmasının incəlikləri və müştərilərin diqqətini cəlb etmək üçün strategiyalar barədə məlumat verib, həmçinin onları maraqlandıran sualları cavablandırıblar.




UNEC-də keçirilən İnnovasiya Həftəsi innovasiya sahəsində yenilikləri təşviq etmək və tələbələrin yaradıcılıq potensialını üzə çıxarmaq məqsədi daşıyır. Həftə ərzində universitetdə müxtəlif tədbirlər, o cümlədən seminarlar, təlimlər, panel müzakirələri və startap ideyalarının təqdimatları təşkil ediləcək. Qeyd edək ki, "Bakcell" gənc nəslin inkişafına və onların yaradıcı potensialının üzə çıxarılmasına xüsusi önəm verir. Şirkət bu istiqamətdə tələbələrə dəstək olmaq, innovativ layihələri təşviq etmək və yeni təşəbbüsləri daha da genişləndirməyi planlaşdırır.

## "Bakcell" haqqında

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda "Bakcell" üç milyondan çox müştərini yüksək keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir. "Bakcell" müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.



Elçin Bayramlı

# Üzə bilməyən və batan Bakı: paytaxtı necə xilas etməli?

***Son yağan yağış zamanı Bakının əksər ərazilərini su basması və 2 vətəndaşın boğulub ölməsi ciddi təhlükə sıqnalıdır. Bakı şəhəri artıq normadan dəfələrlə artıq yüklənib, şəhərin yolları, kommunal sistemləri bu yükün öhdəsindən gələ bilmir. Drenaj sistemləri adi yağış və kanalizasiya sularını ötürməyə çatdıra bilmir. Mütəxəssislərin və aidiyyatı hökumət nümayəndələrinin verdiyi açıqlamalardan vəziyyətin təhlükəli olduğu aydın olur. Nəqliyyatın hərəkətində yaranmış tam kollaps vəziyyəti bir yana qalsın, yağış yağdıqdan sonra Bakını su basması son vaxtlar daha tez-tez müşahidə olunur. Faktiki olaraq Bakı şəhəri artıq yaşanmaz hala gəlib. Bəs bu problemlərin səbəbi nədir, onları necə həll etmək olar?***

Əhalinin çoxalması nəticəsində mövcud nəqliyyat və kommunikasiya sistemləri, su-kanalizasiya qurğuları həddən artıq yüklənib və çatdırmır. Buna görə də, adi yağış yağarkən şəhərin çox hissəsini su basır. Mütəxəssislər neçə ildir həyəcan təbili çalır, lakin hələ də bu sahədə ciddi tədbirlər həyata keçirilməyib.

Landşaftşünas Şəbnəm Karslı bir müddət əvvəl mətbuata sensasion açıqlamasında vəziyyəti belə ifadə etmişdi: "Artıq torpaq sürüşə-sürüşə altının yeyildiyini bizə xəbər verir. Bakıda, Abşeron yarmadasında əhalinin yaşadığı yerin altı ovulur. Bir gün görəcəyik ki, hansısa ərazi çöküb. Bunun effekti yerin üstündə yaşayan insan üçün 9-10 bal gücündə zəlzələ qüvvətindədir". Mütəxəssis fikirlərini bu cür əsaslandırıb: "Sürüşmə və çökmə təhlükəsi olan ərazilərdə insanlar yaşamamalıdır. Ərazidə torpağı gücləndirib, işləri yekunlaşdırdıqdan sonra onun üzərində gəzə bilərsiniz. Mütəxəssislər gəlib ərazidə torpağın altında, üstündə, hansı qatının necə olmasını araşdırmalıdır. Onun üzərindəki inşaat dayandırılmalıdır. Qurunt sularının axınının güclü olduğunu bildiyimiz, xəritədə yeraltı çay kimi gördüyümüz ərazidə yaşayan insanlar mütləq mənada köçürülməlidir. Vətəndaşlar bir minanın üzərində yaşadığının fərqində deyil".

Bakının çoxsaylı və sıx-sıx tikilmiş hündürmərtəbəli binalarla yüklənməsi o səviyyəyə çatıb ki, artıq alimlərin də işi çətinləşib. Mütəxəssis bir müddət qabaq verdiyi qərara bu gün əmin ola bilmir. Çünki orada başqa işlər görülüb, təbii landşaft antropogen lantşafta dönüb. Yaşayış massivləri salınmazdan əvvəl drenaj şəbəkəsi quraşdırılmalıdır və mərkəzi kanalizasiya sisteminə qoşulmalıdır. Sovet dövründən sonra Bakının kanalizasiya sistemlərində təmir işi aparılmayıb, halbuki şəhərdə əhali sayı 3 dəfə artıb.

Son 30 ildə böyük demoqrafiq axına və sürətli tikinti bumuna məruz qalan Bakıda artıq sözün əsl mənasında bina, adam və maşın əlindən tərpənmək olmur. Qeyri-rəsmi məlumatlara görə, Bakıda faktiki olaraq 5 milyonadək insan yaşayır. Şəhərin mərkəzi hissəsi isə daha çox yüklənib. Artıq küçələrdə hərəkət etmək də müşkülə çevrilib.

Yeganə əlac kimi o qalır ki, Bakıda əhali sıxlığını və binaların sayını azaltmaq lazımdır. Problemdən çıxış yolu kimi bəzi idarə və təşkilatların digər şəhərlərə yerləşdirilməsi, şəhərin kənarlara doğru genişləndirilməsi, paytaxtın başqa əraziyə köçürülməsi variantları var. Lakin paytaxtın köçürülməsi real görünmədiyindən, heç olmasa yükünün azaldılması vacibdir.

Bəs çıxış yolu nədədir- şəhəri genişləndirmək və mərkəzdən yüklənməni azaltmaq üçün irəli sürülən təkliflər nə dərəcədə realdır? Memar Rasim Süleymanov deyir ki, Bakını Şıxov və Lökbatan istiqamətində genişləndirmək daha düzgün olar: "Digər ərazilərdə şəhər mərkəzdən xeyli uzaqlara qədər uzanıb, lakin Şıxov istiqaməti paytaxtın mərkəzinə ən yaxın məskunlaşmamış ərazidir. Bakının mərkəzində yeni tikilərə icazə verilməməsi, bzi tikililərin sökülməsi ilə paralel olaraq şəhərin yükünün mərkəzi hissələrdən nisbətən kənarlardakı (Dərnəgül, Böyükşor, Ağşəhər, Şıxov vəs) boş ərazilərə doğru paylanması ilə bugünkü problemlərin bir hissəsi həll edilə bilər.

Bu istiqamətlərdə şəhəri genişləndirmək, gözəl prospektlər yaratmaq, bir-birinə yaxın olmamaq şərtilə yeni binalar tikmək mümkündür. Lakin həmin binalar hazırda tikilənlər kimi hündürmərtəbəli olmalı deyil. Göydələnlər Bakıya məxsus olan memarlıq deyil. Bakı belə ağırlığa davam gətirə bilməz. Bakıda ancaq 5-10 mərtəbəli gözəl binalar tikmək olar".

Memar hesab edir ki, iri dövlət və özəl müəssisələri, idarələri, universitetləri şəhər mərkəzindən kənarlara, hətta digər şəhərlərə köçürmək lazımdır: "Bundan başqa, iş səbəbi ilə Bakıda məskunlaşan yüz minlərlə vətəndaşın rayonlara qaytarılması üçün işlər görülməlidir. Bu da, regionlarda iş yerlərinin artırılması ilə mümkün ola bilər".

Artıq Abşeron yarımadasındakı torpaqların böyük hissəsi satılıb və burada binalar, evlər və obyektlər tikilib. Yarımadanın az qala bütünlüklə şəhərə çevrilməsi, yeni plansız meqapolisin formalaşması böyük problemə səbəb ola bilər. Bakının ətrafında son dövrdə daha yarım milyon ev tikilib, bu da 2 milyon vətəndaşın burada məskunlaşması deməkdir, hansı ki, bunlar rayonlarda evləri, təsərrüfatları olan, orda yaşamalı olan vətəndaşlarımızdır. Onların öz şəhər və kəndlərinə qayıtması üçün regionların inkişafı məsələsinə daha böyük diqqət vermək lazımdır.

Bakını xilas etmək imkanları artıq itirilib, yeganə yol şəhərin əhalinin ən azı 30 faiz azaldılması ilə xüsusi siyasətin yürüdülməsidir. Ona görə də, məsələyə kompleks yanaşmalı və problem fundamental olaraq həll edilməlidir. Bunun üçün ictimai dinləmələr keçirilməli, mütəxəssislərin rəyi nəzərə alınmalıdır. Daha sonra böyük bir dövlət proqramı həyata keçirilməlidir.

# Cibimizdə, əlimizdə, yatağımızda...

***Müasir dünyada ağıllı mobil telefonlar mühüm informasiya-kommunikasiya texnologiyaları kimi istifadə olunur. Mobil telefonlar əvvəllər yalnız zənglər üçün idi və mətn-şəkil mesajları göndərə bilirdi. İndi isə o, e-poçt və internetə çıxış, qısa məsafəli simsiz rabitə, oyun və əyləncə, musiqi dinləmək, iş, sosial şəbəkələr, televizora baxmaq, foto çəkmək, video çəkmək və ya istiqamət almaqla, GPS-dən istifadə etmək kimi bir çox funksiyaları yerinə yetirir. Bu vəziyyətdə cib telefonları bəşər tarixində ən çox istifadə edilən texnologiyalardan birinə çevrilib.***



Rəqəmsal Qlobal Xülasə Hesabatına əsasən, mobil telefondan istifadə hər il artır. 2015-ci ildə dünya əhalisinin 4,15 milyardı, yəni 57 faizi cib telefonundan istifadə etdiyi halda, 2019-cu ildə bu nisbət 53 milyon artaraq 4,68 milyarda, yəni 62 faizə çatıb. 2020-ci ildə bu rəqəm 4,78 milyarda çatıb. Bu gün isə ümumilikdə 5,44 milyard insanın bir mobil telefonu var. Beləliklə dünya əhalisinin 68 faizindən çoxu telefondan bəhrələnir.

2023-cü il Rəqəmsal Qlobal Xülasə Hesabatına görə cib telefonu sahibləri onunla gündə orta hesabla 5 saat vaxt keçirirlər. Təbii ki, söhbət gündüzdən gedir. Hələ telefon sahiblərinin gecələr onunla bir yatağı bölüşməsini bir kənara qoyuruq...

## Ölkəmizdə isə...

Azərbaycanda 2020-ci ildə 10 milyon 344,3 min nəfər olub, nüfuz dərəcəsi isə 104% təşkil edib. 2021-ci ilin göstəricisinə bu, 4,6% artaraq 10 milyon 817,1 min nəfər təşkil edib. 2021-ci ilin sonuna əhalinin hər 100 nəfərinə 108 mobil telefon abunəçisi düşüb ki, bu da bir il öncəki göstəricini 4 nəfər üstələyib.

Qeyd edək ki, 2022-ci ildə isə ölkəmizdə mobil telefon abunəçilərinin sayı 11 milyon 068,1 min nəfər olub. Əhalinin hər 100 nəfərinə 110 mobil telefon abunəçisi düşüb ki, bu da əvvəlki göstəricini 2 nəfər üstələyir.

## Bir yataqda...

Səhər açılandan axşamadək telefonlarımız ya əlimizdə, ya da cibimizdədir. Gecələr isə telefonu artıq çarpayımızın yanındakı şkafın üzərinə qoymuruq. Bu, əvvəllər belə idi. Elə ki, illər ötdü, biz telefonla daha da yaxınlaşdıq, onunla doğma, sevgili olduq, bizə çoxsaylı sosial şəbəkələr təklif etdilər, biz də onların arasına ayrı-seçkilik qoymadıq, hamısını bir nöqtəni basmaqla qonağımız etdik, bu dəfə onu şkafın üzərindən götürüb yastığımızın altına, yanımıza qoyduq. Telefon da bizimlə eyni yatağı paylaşmalı oldu.

Əslində rahat yataq deyə telefonu hərdən şkafın üzərinə qoymağı planlaşdırırıq. Lakin bu yuxuya nə deyəsən? Gecənin yarısınadək sosial şəbəkələrdə gəzişərkən birdən yuxu səni necə aparırsa, telefon əlindən düşüb səninlə bir yatağı paylaşmalı olur.



Bu barədə nə vaxt söhbət açırsansa, "ay bala, ay uşaq, ay qızım, ay oğlum, ay kişi, bu telefon sizin sonunuz olacaq",-deyirsənsə, hərə bir tərəfdən üstünə düşür ki, sən də söz tapmısan ey, danışmağa: bir balaca telefondur da, guya onun adama nə maneçiliyi var ki, yastığın altında, yanında olanda guya nə olacaq ki.

İndi sən gəl, bunlara başa sal görüm, necə başa salırsan ki, ey qafil insan, sənə elə gəlir ki, o balaca bir əşyadır. Anla ki, səninlə bir yataqda böyük bir faciə yanyanadır.





Sən yatırsan, düşünürsən ki, o da yatır. Xeyr, o yatmır. O, sənə "layla" çalır. Amma ananın laylasından fərqlidir, bu layla. Ananın laylası səni böyütmək üçün idi. Telefonunun laylası isə səni itirmək üçündür.

Sən yatırsan, yastığının altından başına sarılan ilanlardan xəbərin varmı? Yoxdur. Lakin diqqət etsən və ağlını başına toplasan, bunu görmək bir o qədər də çətin deyil.

Sən yatırsan, o yan-bu yana çevriləndə üzün yastığının yanına qoyduğun telefonun üstünə düşür. Səninlə bir yatağı paylaşan bu sevimlidən bilirsən, üzünə nələr daraşır, oradan da beyninə doğru irəliləyir? Bilmirsən. Hələ bir deyəndə gülürsən də. Lakin bir araşdır, onda görəcəksən...

Yuxulayırsan, telefon əlindən düşüb qalır sinənin-ürəyinin üstündə. Sən şirin yuxuda olarkən, o da sənin kimi şirin yuxuya getmir. Sən oyananadək ürəyinə etdiyini edir. Gülürsən, yenə? Çünki anlamırsan, anlamaq da istəmirsən. Sən yuxuda ikən o, ürəyinin qulaqcıqlarına, mədəciklərinə sitəm edir. İnanmırsan, get araşdır, onda anlayarsan...

Bəzən narahat yatırsan, o tərəfə-bu tərəfə çönürsən, telefonun da sürüşüb böyrəyinin düz üstünə düşür. Bilirsən ki, səhərədək o böyrəyinə nə cəzalar verir? Bilmirsən. Ağlına da gəlmir. Bir vaxt yalnız əzilmə hiss edib oyanırsan, telefonun ruhunu incitmədən götürüb yastığının altına, ya da yanına qoyursan. "Ay sənə nə deyim, burada nə gəzirsən?"-, deyib yenidən yuxulayırsan. Lakin xəbərsizsən ki, artıq o sənin böyrəyinə elə bir ziyan vurub ki, lap yaxın gələcəkdə "bəhrəsini" görəcəksən.

Yuxulayırsan, telefon dəqiqələrlə əlində qalır. Onun damarlarına təmasından xəbərsizsən. Sən yatdığın anlarda o, qanınla bütün bədənini dolaşır. Bunu sənə kimsə söyləyəndə uğunursan gülməkdən. "Söz tapdın da danışmağa",-deyirsən. Lakin gülməli gündə özünün olduğundan o qədər xəbərsizsən ki...

## Araşdırmalar sübut edir...

Kaliforniyanın Səhiyyə Departamentinin əməkdaşları xəbərdarlıq ediblər ki, insanlar yuxu zamanı smartfonları özlərindən ən azı bir əl məsafəsində saxlamalıdırlar. Qeyd edilir ki, mobil telefonlarda şüalanma dozası, hansını ki, insan yuxu ərzində alır, xərçəng və sonsuzluğun inkişafı riskini əhəmiyyətli dərəcədə artıra bilər.



"Telefonu yanında saxlamaq heç vaxt yaxşı ideya hesab edilmir", - deyə doktor Devra Devis qeyd edib. Jurnalistlərin sözlərinə görə, mobil telefonların istehsalçılarının özləri faktiki olaraq bu avadanlığın sağlamlıq üçün təhlükəsini bilirlər. Və təlimatlarda onun haqqında xəbərdarlıq edirlər. Mütəxəssisləri ən çox narahat edən odur ki, insanlar telefonda zəngli saatı quraşdırırlar və onu özlərinin yanına qoyurlar.

*Ardı Səh. 13*

# Cibimizdə, əlimizdə, yatağımızda...



Əvvəli Səh. 12

## Ümumi olaraq

Gün ərzində ümumilikdə 35-40 dəqiqədən artıq mobil telefondan istifadə etmək orqanizmə aşırı dərəcədə ziyan vurur; mobil telefonla çox danışmaq eşitmə sinirlərini korlayır; çox SMS yazmaq barmaqlarda keyiməyə səbəb olur; saatlarla oyun oynamaq gözdə qızartılar və quruluq əmələ gəlir, boyunda və beldə müəyyən müddətdən sonra ağrılar yaranır; diqqət dağınıqlığına səbəb olur; çox danışanda beyin hüceyrələrinin bir qismi ölür; dalğaları qan hüceyrələrinə mənfi təsir edir; mobil telefonlar hətta saç köklərinə də pis təsir göstərir.

Gecələr telefonu söndürmək vacibdir, telefonu söndürdükdən sonra da radioaktiv təsirləri qalır, bu səbəbdən də onu baş nahiyəsinə yaxın qoymaq zərərlidir. Əks təqdirdə: beyində şişlərin inkişafı riskini artırır; hamiləlik vaxtı körpəyə çox pis təsir edir; bədəni şüalanmaya məruz qoyur, təhlükəli şüa saçır; yaddaşı zəiflədir; aludəçilik yaradır; görməni zəifədir; baş ağrılarına səbəb olur; əsəb sistemini oyadır.

Aludə olmaq ona gətirib çıxarır ki, telefondan uzaq qaldıqda insanlar narahat olur. Bu da: nevroz xəstəliyi yaradır; yuxusuzluğa səbəb olur.

Telefonla çox və yaxın təmasda olmağın kişilərdə sonsuzluq yaratdığı bildirilir. Çünki telefon hüceyrələrdə genetik dəyişikliklərə səbəb olur.

Uşaqlara mobil telefondan yalnız məcburi hallarda istifadəyə icazə vermək olar. Çünki azyaşlılarda xərçəng yaranma ehtimalı ikiqat



artıqdır.

## Ən vacib hormon

Yuxu hormonu olaraq bilinən melatonin ətrafdakı işıq miqdarı ilə sıx bağlıdır. İşığın miqdarı azaldıqca artan melatonin maddələr mübadiləsini ləngidir və yuxuya hazırlaşır. Ancaq yatmazdan əvvəl yüksək işıqda cib telefonunun ekranından istifadənin orqanizmdəki melatonin miqdarını azaltma təsiri var. Mobil telefonla yatmağın zərərləri arasında bu məsələ yuxu sağlamlığı ilə sıx bağlıdır. Cib telefonundan yayılan işıqla yanaşı, radiasiya da beynin müvafiq mərkəzlərini stimullaşdırır və yuxuya getməyi çətinləşdirir. Yatmazdan əvvəl oynanan oyunlar, oxunan mesajlar, edilən paylaşımlar bədəndə adrenal səviyyəsini artırır, melatoninin basdırılmasına səbəb olur.



## Bu arada...

Əvvəl hamı yatağında tək yatır, rahat, qayğısız... Ailə quranadək bəli, tək yatır. Ailə quranda isə böyüklərimiz "bir yastıqda qocalın" nəsihətini etməklə gənclərə xeyirdua verirlər. Gənclər də öz yataqlarını sevdikləri insanla bölüşürlər...

Lakin kimin ağlına gələrdi ki, vaxt gələcək ki, tək ər-arvad yox, hamı yatağını bölüşəcək. Maraqlıdır, deyilmi?

Elə bir dövrə gəlib çatdıq ki, artıq həm övladlarımız, həm də özümüz yatağımızı paylaşmalı olmuşuq. İndi ər-arvad da yatağını bölüşür, subay olanlar da.

Azyaşlı uşaqlardan başqa hər bir insan övladı gecəni yatağında tək uyumur, onunla səhərləri axşamlayan, axşamları səhər edən biri var: telefon...

## Çox dedik, az eşitdilər

Biz jurnalistlər illərdir, mütəxəssislərin mobil telefonlarla bağlı söylədiyini araşdırıb zərərli tərəflərini dəfələrlə oxuculara çatdırırıq. Təəssüf, baxmayaraq ki, çox deyirik, lakin bizi eşidən azdır. Nədənsə insanlar həmişə zərərli, ziyan olan tərəflərə meyl edirlər. Bunu tək mobil telefonlardan istifadədə deyil, gündəlik həyatımızın bütün sahələrində görmək mümkündür. Məsələn, bu qida ilə, geyimlə, müxtəlif kosmetoloji əməliyyatlarla, alışqanlıq və vərdişlərlə bağlıdır.

Nə üçün insan övladı onun xeyrinə olanların əksinə gedir, bu, hələ də bəşəriyyətə məlum deyil. Lakin düşünəndə ki, bir zamanlar deyilənləri eşitməyib, zərərini çox görmüşük, onda bu gün deyilənləri də eşitməyənlərin bir neçə il sonra çəkəcəyi zərər göz önünə gəlir.

Biz nə qədər az eşidiriksə, mobil telefonların vaxtsız ölümə səbəb olmasından da xəbərsiz qalacağıq. Onlarla bir yataqda, yan-yana olmaqla sağlamlığımızı, həyatımızı, gələcək nəsilləri qurban verdiyimizi anlamağın vaxtı çoxdan çatıb. Lakin biz bu məsələnin dərk edilməsində hələlik yerimizdə sayırıq. Yerimizdə sayırıqsa, deməli, anlamağımıza hələ xeyli var...

***Mətanət Məmmədova***



# Dağıdıcı müxalifət keçmişin səhvlərindən ibrət dərsi almadı

## İsa Qəmbər, Əli Kərimli, Arif Hacılı, Pənah Hüseyn bu günə qədər çıxıb etdikləri bəd əməllərə, yanlış siyasətə görə xalqdan üzr istəməyiblər

Gerçəklikləri dilə gətirmək, səhvləri etiraf etmək heç zaman zəiflik əlaməti hesab olunmayıb, əksinə, böyüklük kimi qiymətləndirilib. Təəssüflər olsun bu vacib hesab olunan amili siyasət ə olduğunu iddia edən kəslər nəzərə almaq istəmirlər. Xüsusilə də xalqa və dövlətə böyük acılar, fəlakətlər yaşatmış siyasətçilər vacib hesab edilən amili nəzərdən keçirmək istəmirlər. Buna onların həddindən artıq hikkəli və iddialı olmaları imkan vermir. Fikir verin, AXC- Müsavat cütlüyü hakimiyyətdə olduğu dönəmdə millətimizə və dövlətimizə böyük fəlakətlər, faciələr yaşatdı, ancaq bu günə qədər İsa Qəmbər, Əli Kərimli, Arif Hacılı, Pənah Hüseyn və digər o dövrün vəzifə dəllalları bir dəfə də olsun xalqın qarşısına çıxıb etdikləri bəd əməllərə, yanlış siyasətə görə üzr istəməyiblər. Əksinə, daha böyük həyasızlıqla törətdikləri faciələrə, həyata keçirdikləri fəlakətlərə müxtəlif formada don geyindirməyə çalışıblar. Ancaq anlamırlar ki, nə qədər gec səhvlər etiraf olmasa, o qədər küncə sıxışdırılmış, xalqın gözündən düşmüş halda olacaqlar. Onların səhvlərinə gəlincə isə, birincisi kadr islahatları başdan ayağa qədər yanlış olub. Çayxanada çayçını, restoranda ofisiantı, universitetdə laborantı yüksək dövlət vəzifələrinə təyin etməklə yenicə müstəqillik qazanmış dövlətin idarə edilməsində müsbət nəticələr qazanmaq mümkün deyildi. İkincisi isə İsa Qəmbər, Əli Kərimli, Pənah Hüseyn, Arif Hacılı kimi gerizəkalı məxluqlar Qarabağ münaqişəsini beynəlmiləlləşdirməklə problemin dərinləşməsinə təkan verdilər. O zaman bu məxluqlar elə düşünürdülər ki, münaqişəni beynəlmiləlləşdirməklə Ermənistanı diz çökməyə məcbur etmək olar. Bunun üçün hətta Kəlbəcərin müdafiəsinin zəif təşkil olunmasına da maraq göstərildi. Nəticədə, Kəlbəcər işğal edildi. Birmənalı şəkildə demək olar ki, Kəlbəcərin işğal edilməsi AXC hakimiyyətinin səriştəsizliyinin nəticəsi idi.

### AXC hakimiyyətinin dünyanı ”Azərbaycanın atom bombası var” deyə hədələməsi Azərbaycanın regionda izolyasiya olunmasına gətirib çıxardı

O zaman AXC hakimiyyətinin prosesləri proqnozlaşdırıb, ondan nəticə çıxara bilməməsi, xüsusilə də, təhlükəsizlik sahəsində cavabdeh olan şəxslərin siyasi səriştəsizliyi Kəlbəcərin işğalına gətirib çıxardı. Onların beynəlxalq siyasətdə buraxdıqları kobud səhvləri Azərbaycanın faciə ilə üzləşməsinə səbəb oldu. Belə ki, Rusiyanı düşmən elan etmək, Çinə bayraq sancacaqları barədə anormal fikir səsləndirmək, Özbəkistan rəhbərliyini türkçülüyə bağlılığı olmamaqda günahlandırmaq və bu kimi qeyri-ciddi bəyanatlar verməleri, nəhayətdə, dünyanı ”Azərbaycanın atom bombası var” deyə hədələmələri Azərbaycanın regionda izolyasiya olunmasına gətirib çıxardı. Bir yandan Ermənistan torpaqlarımızı işğal etmək üçün hücuma keçir, o biri tərəfdən Rusiya, Özbəkistan və digər dövlətlərlə düşmənçilik münasibətləri yaranır. Bir sözlə, AXC hakimiyyəti Azərbaycanı arzuolunmaz problemlərlə üz-üzə qoymuşdu. Bütün bunların fonunda Qarabağ münaqişəsini beynəlmiləlləşdirmək, demək olar ki, Azərbaycanın torpaqlarının daha geniş ərazidə işğalına gətirib çıxardı. Ona görə ki, Qarabağ münaqişəsinin həllini bu gün artıq tarixin zibilliyinə atılmış ATƏT-in Minsk Qrupuna həvalə etməklə problemin üçpilləli problemə çevrilməsinə səbəbkar oldular. Yəni artıq onun həlli, lokal və regional deyil, qlobal münaqişəyə çevrildi. Bu halda isə problemin həllinə nail olmaq üçün Rusiya, Türkiyə, Fransa, indiki fars-mollar rejimi, ABŞ, Avropa Birliyi və NATO-nun maraqları əhatə olunmalıdır. Fikir verin, nə qədər mövqelər və maraqlar üst-üstə düşməli idi ki, Qarabağ problemi həllini tapsın.



### O zaman AXC- Müsavat cütlüyü Ulu Öndər Heydər Əliyevi hakimiyyətə dəvət etsəydi, böyük faciələr baş verməyəcəkdi

1992-ci ildə Qarabağ problemi daha dar çərçivədə həll oluna bilərdi. Necə ki, sonrakı mərhələlərdə yaranan və heç də Qarabağ problemindən ağrılı olmayan problemləri daxili məsələ olaraq həll edildi. 1993-cü ildə Şimalda ”Sadval”, Cənubda isə qondarma ”Talış-Muğan Respublikası” məsələsi meydana gələndə, Ulu Öndər Heydər Əliyev çox böyük ustalıqla bu məsələni həll etdi. Lakin Qarabağ separatçılarına qarşı Elçibəy hakimiyyəti bu cür addım atmadı. Elçibəy hakimiyyətinin ən böyük günahı o oldu ki, onlar bu məsələni beynəlmiləlləşdirdilər. Bu da onların siyasi səriştəsizliyinin nəticəsi idi. Qarabağ məsələsini beynəlmiləlləşdirmək böyük səhv idi. O zaman Azərbaycan ordusu Xankəndinin 15 km yaxınlığında idi və Kəlbəcərə yol açılmışdır. 1993-cü ilin yanvar ayının 15-nə qədər ərazilərimiz işğaldan azad olunurdu. Həmin zaman orada, hətta rus qoşunları da vardı. Lakin Rusiyanın vəziyyəti ağır olduğundan, ermənilərə heç bir köməklik göstərə bilmirdi. Fevral ayında Xalq Cəbhəsi bəyanat verdi və həmin bəyanatdan sonra onlar ordunu geri çəkdilər. Bütün bu məsələlərin üstündən 30 ildən artıq vaxt keçir. Niyə bu məsələlərə aydınlıq gətirilmir? Niyə tarixçilərimiz susur? Bütün bunlar onu deməyə əsas verir ki, o zaman ki, AXC-Müsavat hakimiyyəti bununla millətə ziyan vurmuş oldu və bu, bağışlanmazdır. Müharibə bir dövlətin başqa dövlətə elan etdiyi rəsmi hüquqi aktdır. Azərbaycanın Qarabağ ərazisində separatçılıq baş qaldırmışdı və bu məsələni daxili məsələ olaraq asanlıqla aradan qaldırmaq olardı. Əgər həmin zaman hakimiyyətə olanlar Ulu Öndər Heydər Əliyevi hakimiyyətə dəvət etsəydilər, bu problemlər baş verməyəcəkdi. Amma AXC hakimiyyəti belə bir addım atmadı.

### Qanunu bilmədən cinayəti törətmək heç kəsi cəzadan xilas etmir

AXC hakimiyyətinin Qarabağ münaqişəsini beynəlmiləlləşdirməsi səriştəsizliyinin nəticəsi idi. Onları həm də aldanıldıqlarını düşünürlər. Amma bütün hallar da səhvlər bağışlanmazdır. Yaddan çıxarmaq olmaz ki, 1948-ci ildə İsrail və Fələstin dövlətlərinin yaradılması üçün Fələstinə 60, İsrailə isə 40 faiz ərazi verilirdi. Bununla bağlı BMT-nin qətnaməsi də vardı. Fələstinlilərin səhvi nəticəsində torpaq sərhədləri 60 faizdən 25 faizə endi. Çünki fələstinlərin səhvindən istifadə edən İsrail müharibə yolu ilə Fələstin torpaqlarını işğal etdi. Hələ də İsrail işğal etdiyi Fələstin torpaqlarını azad etməyib. Baxmayaraq ki, BMT Təhlükəsizlik Şurası bir necə dəfə işğal edilən Fələstin torpaqlarının azad edilməsi haqqında qətnamələr qəbul edib. AXC hakimiyyəti bunu bilir və görürdü. Təcrübəsizlikdən, səriştəsizlikdən millətə sağalmayacaq yara vururdular. Bu isə bağışlanmazdır. Qanunvericilikdə də var. Qanunu bilmədən cinayəti törətmək heç kəsi cəzadan xilas etmir. Bunu Elçibəy hakimiyyəti bilməli idi. Bilmirdisə, niyə prezident seçilməyə səy göstərirdi? Nəzərə almaq lazımdır ki, 1993-cü ilin fevral ayına qədər Azərbaycan Qarabağın 60 faizinə tam nəzarət edirdi. Keçmiş Hadrut rayonunun cəmi bir kəndi erməni işğalında qalmışdır. Əgər əvvəllər Hadrutla Ermənistan arasında məsafə 15 km idisə, o 50 km çatdırıldı. Bütün Ermənistana yaxın olan sərhəd kəndləri azad edildi. Aparılan uğurlu hücumun qarşısı birdənbirə dayandırıldı. Niyə? Bax, bu sualın cavabını hələ də AXC-nin hakimiyyətdə olmuş nümayəndələri bu günə qədər cavab verməyiblər. Bu isə onu təsdiq edir ki, onlar həqiqətin və ədalətin önündə acizdilər, etiraflarla və suallara cavab verməklə ən azı özlərinə təskinlik vermək gücündən və imkanından belə məhrumdurlar. Hazırda 30 illik erməni işğalına son qoyulub.

Buna Fateh Sərkərdə, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik bacarığı, fenomen diplomat olması və xalqın böyük dəstəyini qazanması ilə nail olundu. Bu gün artıq Qarabağımız rahat nəfəs alır və ərazi bütövlüyümüz tam təmin edilib. Sual yaranır, niyə bu məqamda Əli Kərimli separatçı mövqeyindən hələ də əl çəkməyib? Nədən işğalına şərait yaratdıqları, lakin böyük Fateh, Prezident İlham Əliyevin sərkərdəlik məharəti ilə azadlığına qovuşan Qarabağımızla bağlı paylaşımlar etmir, xalqa ünvanlanan təbriklərlə çıxış etmir, xarici anti-Azərbaycan qüvvələrin Ermənistandakı revanşistlərlə həmrəylik nümayiş etdirməsinə etirazını bildirmir? Cavabı aydındır, içində bu millətə olan kin-küdurət və dövlətə olan düşmən münasibət ona xalqın sevincinə şərik olmasına imkan vermir. Belə məxluqlara azərbaycanlı demək də yanlışlıq olardı.

***İLHAM ƏLİYEV***

## “Bu gün hələ də problemlər qalmaqdadır”

*EKSPERT FİKRİ*



“Son illərdə qida təhlükəsizliyi sahəsində bir çox yeniliklər mövcuddur. Xüsusilə qanunvericiliyə əlavə olunan təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə əhalinin təmin olunması, eyni zamanda qida məhsullarının təhlükəsizliyinə nəzarət sisteminin artırılması əsas vəzifələrdən biri kimi müəyyən edilir. Bununla bağlı müvafiq işlərin aparılması üçün müvafiq qurumlarda və vətəndaş cəmiyyətində işlər aparılır. Xüsusilə dövlət qurumu olan AQTA tərəfindən aparılan monitorinqlər və bu monitorinqlərin nəticələrinin açıq şəkildə ictimaiyyətə çatdırılması, bu istiqamətdəki maarifləndirmə işləri bu sahədə görülən mühüm işlərdəndir”. Bu sözləri SİA-ya açıqlamasında Qida təhlükəsizliyi Hərəkatının rəhbəri, Sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova bildirib.



O qeyd edib ki, aparılan maarifləndirmə işləri və monitorinqlərə baxmayaraq, bu gün hələ də problemlər mövcuddur: ”Buna görə də mütləq şəkildə istehlakçılar da yetəri qədər maariflənməli və mənşəyi bəlli olmayan, keyfiyyətindən şübhə duyulan məhsuldan istifadə etməməlidir. Eləcə də bir çox dövlət gənclər proqramında belə əhalinin sağlam həyat tərzi, sağlam qidalanması ilə bağlı bir çox layihələrə dəstək olunur. Bu da mütəmadi olaraq təhsil müəssisələrində həyata keçirilməklə insanların maariflendirilməsi işini sürətləndirir.

Digər tərəfdən isə sağlam qidalanmaq üçün də satışda yetərli qədər məhsul çeşidi mövcuddur. Bütün bunlara baxmayaraq gündəlik istifadə olunacaq qidalarda karbohidrat, zülal, yağ, vitamin və mineral dəyəri olan qidalara üstünlük verməyə xüsusilə diqqət etməlidir. Sağlam qidalanma zamanı yerli və mövsümi meyvələrdən istifadə tövsiyyə olunandır. Belə ki, gün ərzində 3-4 meyvə yeyilməsi məqsədəuyğundur. Süd və süd məhsulları da sağlam qidalanmanın əsas özəyidir. Həmçinin gündəlik su qəbuluna da mütləq diqqət etmək lazımdır”.

***Səbinə Hüseynli***

# "Azərbaycana yarımçıq yox, tam sülh sazişi lazımdır və bunun arxasında duracaq"

**Pavel Klaçkov:** "Yarımçıq sülh sazişi təklifi keçməyəcək, Azərbaycanda hakimiyyətdə ağıllı adamlar var və ABŞ-ın addımlarının arxasında gizlənən hər şeyi görürlər"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*








***Politoloq, Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin filialının direktoru Pavel Klaçkov "Moskva-Baku" portalına müsahibəsində Rusiya, Türkiyə və İranın Azərbaycan və Ermənistana regional "3+3" platforması çərçivəsində sülh sazişinin imzalanması üçün qalan məsələlərin həlli ilə bağlı təklifini şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Rusiyanın xarici işlər naziri Sergey Lavrov ötən həftə İstanbulda "3+3" formatında keçirilən görüşün yekunlarına əsasən, Rusiya, Türkiyə və İranın Azərbaycan və Ermənistana təklif verdiklərini bildirib. Təklif edilib ki, tərəflər bu regional format çərçivəsində sülh sazişi üzrə bütün qalan məsələləri, eləcə də Ermənistan-Türkiyə münasibətlərinin normallaşması məsələlərini həll etsin. Belə bir təklifi necə şərh edə bilərsiniz?***

- Regional məsələlərin "3+3" formatı çərçivəsində həlli ideyası uzun müddətdir ki, havadadır. Ona görə də Rusiya, Türkiyə və İranın Azərbaycan və Ermənistana sülh sazişi ilə bağlı bütün məsələlərin bu format çərçivəsində həlli təklifi balanslaşdırılmışdır, Cənubi Qafqazda və ətraf regionlarda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə yönəlib. Ağlabatan səslənir. Bu, həm də Qərbin Qafqazda möhkəmlənmək cəhdlərinə qarşı durmaq və Qərbin öz siyasətini regiona sırımağa cəhd etmək, müdaxilə etmək və öz maraqları çərçivəsində Ermənistan-Azərbaycan nizamlanmasına hansısa yolla təsir göstərməyə çalışmaq planına qarşı durmaq məqsədi daşıyır.

Azərbaycan və Ermənistanın belə birləşdirilmiş təklifi dəstəkləməsi məntiqli olardı. İnanıram ki, Bakı buna qarşı deyildi. Azərbaycan Respublikasının Türkiyə ilə sıx əlaqələri var və onlar Bakının razılığı olmadan İstanbulda belə bir format təklif edə bilməzdilər. Bu mümkün deyil. Bundan başqa, "3+3" formatının yaradılması təşəbbüsü Azərbaycan və Türkiyə liderləri tərəfindən irəli sürülüb.

Lakin Sergey Lavrovun bəyanatlarından nəticə çıxara bildiyimizə görə, görünür, Ermənistan bu təkliflə kifayətlənməyib. O, sadəcə olaraq bunu əlverişsiz hesab edib. Axı İrəvan davamlı və nümayişkaranə şəkildə Qərbə doğru irəliləyir. İndi Amerika Birləşmiş Ştatları hakimiyyətində növbə dəyişikliyi yaxınlaşır. Prezident seçkilərinin nəticələrini proqnozlaşdırmaq hələ də çətindir. Bu isə Ermənistanın gələcək siyasi addımlarını dayandırır. İrəvan gözləyir ki, Vaşinqtondan gələn böyük bosslar nə deyəcəklər. Burda nə deyim- onlar özlərinə problem yaratmağı bilirlər.

Bu fonda Rusiya və Azərbaycanın mövqeyi sakit, sabit və gözlənilməndir.

Erməni faktoru ilə yanaşı, "3+3" formatının tam işləməsinə mane olan daha bir tıxac var. Çünki Gürcüstan hələ də bu formata qoşulmayıb. Baxmayaraq ki, biz bilirik ki, Azərbaycan və Ermənistan xarici işlər nazirləri Gürcüstan əraziləri mövzusunda danışıqlar aparıblar. Əminəm ki, gələcəkdə "3+3" formatı həqiqətən də tam işləyəcək. Amma bunun üçün 5 deyil, 6 dövlətin hamısı bu formatda maraqlı olmalı və əsas istiqamətlərdə vahid mövqeyə malik olmalıdır. Və 6 dövlətdən heç biri seçilməməli, bir yerə baxmalı və "həyat haqqında fərqli təsəvvürlərə sahib olmamalıdır". O zaman bütün məsələlər "3+3" çərçivəsində həll oluna bilər. Hələlik bunun həyata keçirilməsi olduqca çətin prosesdir. Son görüşdə tərəflər "3+3" formatı üzrə əməkdaşlığın əsas istiqamətlərini müəyyən ediblər. Bunlar siyasət, təhlükəsizlik, terrorizm təhdidləri ilə mübarizə, iqtisadiyyat, xüsusilə enerji və nəqliyyat-logistika əlaqələridir. Görək bu prioritetlər praktikada necə həyata keçiriləcək.

Gürcüstan, gördüyümüz kimi, bu gün Qərbin ona təzyiq göstərmək və onu idarə etmək cəhdlərindən çox fəal şəkildə çıxır. Və bu, dövlətlərin öz suverenliyini və başqalarının suverenliyini, münasibətləri bərabər şərtlərlə qiymətləndirdiyi çoxqütblü dünyanın inkişafının məntiqinə uyğundur. Çoxqütblü dünya qurmaq zamanın çağırışıdır, obyektiv reallıqdır. Siyasi qərarlarında bu reallığı nəzərə alan ölkələr isə gələcəkdə qazanacaqlar. Rusiyanın sədrliyi ilə Kazanda başlayan BRİCS-in zirvə toplantısı ətrafındakı həyəcana baxın. Yeri gəlmişkən, sammit Azərbaycan prezidentinin iştirakı ilə keçir. Azərbaycan Respublikası, bildiyiniz kimi, bu beynəlxalq birliyə üzvlük üçün müraciət etmişdir.

Son vaxtlara qədər çoxlarına elə gəlirdi ki, hər şey Vaşinqtondan asılıdır və başqa heç nə yoxdur. İndi dünya ölkələrinin əksəriyyəti sözün əsl mənasında ayılıb, siyasi cəhətdən aktuallaşıb, öz səsini tapıb və bu prosesləri görməmək sadəcə olaraq mümkün deyil.

Gördüyümüz kimi, Ermənistan Azərbaycandan fərqli olaraq yaxın gələcəkdə BRİCS-ə qoşulmağı planlaşdırmadığını bir daha təsdiqlədi. Yəqin ki, Ermənistanın qərbyönlü siyasətini nəzərə alsaq, bu, təəccüblü deyil. Bununla belə, BRİCS bundan əziyyət çəkməyəcək, çünki assosiasiyaya qoşulmaq istəyənlərin sayı çoxdur.

***- Bu gün (dünən- red.) məlum oldu ki, Co Bayden və onun nümayəndəsi Vaşinqtonun bu il Ermənistanla sülh sazişi imzalamağa necə cəhd edə biləcəkləri ilə bağlı İlham Əliyevə təkliflərini çatdırıb. Bayden bunu (məktub əsasında) onunla əlaqələndirib ki, COP29-a görə dünyanın gözləri Bakıya dikilib və Azərbaycan sülhə sadiqliyini dünya ictimaiyyətinə nümayiş etdirə bilər. ABŞ həqiqətən nəyə nail olmaq istəyir?***

- Bu, Ermənistan və görünür, həm də Qərb üçün sərfəli şərtlərlə İrəvanla sülh sazişinin imzalanması məsələsində Bakıya təzyiq cəhdi kimi görünür. Qısaldılmış sülh müqaviləsi. Dediyiniz kimi, Baydenin məktubu noyabrda Azərbaycanda keçiriləcək BMT-nin iqlim konfransı ilə bağlı Bakının sülhsevər addımlar nümayiş etdirmək imkanından bəhs edir. Sual olunur ki, bunları yalnız Bakı nümayiş etdirməlidir? Birtərəfli mövqe kimi görünür. Azərbaycan prezidentinin ABŞ-ı mütəmadi və güclü tənqidi fonunda Baydenin sülh sazişinin tezliklə imzalanması ilə bağlı təklifləri şübhə doğura bilməz. Necə deyərlər, od olmayan yerdən tüstü çıxmaz. Qapını onlara göstərəndə belə pəncərədən dırmaşan, israrla öz "xidmətlərini" təklif edən ABŞ-ın belə addımları Vaşinqtonun Qafqazda problemlərini bu cür həll etməyə çalışmasından xəbər verir.

Vaşinqton hələ də başqaları ilə didaktik şəkildə ünsiyyət qurmağa çalışır. Lakin ABŞ dünyanın dəyişdiyini hələ də başa düşməyib. Ona görə də, Vaşinqtonun davranış modeli eyni olaraq qalır.

Amma Azərbaycanda hakimiyyətdə ağıllı adamlar var. Bakıda ABŞ-ın addımlarının arxasında gizlənən hər şeyi görürlər.

***- Azərbaycan Bakı ilə İrəvan arasında sülh sazişinin imzalanması üçün Ermənistanın öz Konstitusiyasını dəyişməsi şərtini təkid edir. Qalan məsələlərin sonradan həlli ilə ilkin sülh sazişinin imzalanmasının variantları varmı?***

- Bu haqda düşünməyə belə dəyməz. Ermənistanın indi Konstitusiyaya dəyişiklik etmək istəməməsi, hesab edirəm ki, ölkədə cəmiyyət daxilində revanşist əhval-ruhiyyə ilə bağlıdır. Axı respublika daxilində konsensus olmalıdır. Bu baxımdan, görünür, 2027-ci ilə Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı referendum təyin edilib ki, cəmiyyətdə bunun zəruri olduğuna inanmaq mümkün olsun.

Əminəm ki, Azərbaycanın qısaldılmış sazişi imzalamamaq üçün öz üzrlü səbəbləri var. Yarımçıqlar dövrü bitib. Əgər Bakının belə qəti mövqeyi varsa, deməli, bunun səbəbləri var, o cümlədən Ermənistanla münasibətlərin tarixi təcrübəsi. Bakı bugünkü situasiyada özünü yarımçıqlıqla məhdudlaşdırmağı yolverilməz hesab edir. Doğrudan da, Ermənistanın 9-10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın bəzi bəndlərini yerinə yetirmədiyi və indi də yerinə yetirmədiyi o qədər presedentlər olub ki.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ

# SƏS

23 oktyabr
2024-cü il

## Yerə siqaret atmağa görə cərimələr artırıldı - Milli Məclisdən QƏRAR



***Tütün məmulatları tullantılarının ətraf mühitə atılmasına görə cərimənin məbləği artırılır. SİA xəbər verir ki, bu, Milli Məclisin dünən keçirilən iclasında müzakirəyə çıxarılıb. Tütün məmulatları tullantılarının ətraf mühitə atılmasına görə cərimənin məbləği 50 manatdan 300 manata qaldırılır.***

Eyni zamanda, nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə 700 manat məbləğində cərimə edilir, yaxud işin hallarına görə xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, 60 saatdan 100 saatadək ictimai işlər tətbiq olunur. Müzakirələrdən sonra dəyişiklik səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!




«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## Mert Günok ”Qalatasaray”la derbini buraxacaq

“Beşiktaş”ın qapıçısı Mert Günok zədələnib. İstanbul klubunun rəsmi açıqlamasında deyilir ki, Türkiyə millisinin üzvü Superliqanın 9-cu turunda ”Konyaspor”a qarşı keçirilən matçda sol çiyinindən zədə alıb. O, oktyabrın 24-də Avropa Liqasının Liqa mərhələsinin 3-cü turunda ”Lion”a (Fransa) və 4 gün sonra Superliqada ”Qalatasaray”a qarşı matçları buraxmalı olacaq.




## Bakıda qızını öldürməyə cəhd edən ataya hökm oxunub

***Bakıda qızını öldürməyə cəhd etməkdə təqsirləndirilən Rəfail Cavadovun cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb. SİA xəbər verir ki, dünən Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Səbuhi Hüseynovun sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı Orxan Kəngərli ittiham nitqi ilə çıxış edərək məhkəmədən təqsirləndirilən şəxsin 11 il 3 ay müddətinə azadlıqdan məhrum edilməsini istəyib.***



Vəkil müdafiə çıxışı etdikdən sonra təqsirləndirilən şəxs son söz deyib. Daha sonra məhkəmə hökmü elan edib. Hökmə əsasən, təqsirləndirilən şəxs 11 il 3 ay müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, hadisə bu ilin fevralında paytaxtın Qaradağ rayonu ərazisində qeydə alınıb. Belə ki, 1958-ci il təvəllüdlü Rəfail Cavadov qısqanclıq zəminində qızı Rəna Cavadovanı 5 bıçaq zərbəsi ilə xəsarət yetirib. Rəfail Cavadov hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən şübhəli şəxs qismində saxlanılıb. Ona qarşı Cinayət Məcəlləsinin 29, 120.2.4-cü (xüsusi amansızlıqla qəsdən adam öldürməyə cəhd) maddəsi ilə ittiham irəli sürülüb.

### ELAN

27.10.2022-ci il tarixdə DSX tərəfindən Əhmədov Səlimxan Manaf oğluna verilmiş DSX № 0000574 saylı xidməti vəsiqə itdiyi üçün etibarsız hesab edilsin.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**